*Dinimiz milli-mənəvi sərvətimizdir.* HEYDƏR ƏLİYEV

# CƏMİYYƏT VƏ DİN

Təsisçi: AZƏRBAYCAN RESPUBLİKASI DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ www.scara.gov.az № 05 (391) / MAY 2024-CÜ İL



Burada, bu torpaqda söz sahibi bizik. Bizim siyasətimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Əgər bu gün yenə də görsək ki, Ermənistanda revanşistlər baş qaldırır, Fransa Ermənistana öldürücü silahlar verir, o silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim inciməsin. Hər halda hər kəs bilir ki, biz nəyə qadirik, Ordumuz nəyə qadirdir və iradəmiz nə qədər möhkəmdir. Heç kim bizim qabağımızda dura bilməz. Heç kim bizə heç nə diktə edə bilməz və bizim daxili işlərimizə müdaxilə edə bilməz. Nəyi lazım biliriksə, onu da edəcəyik. İkinci Qarabağ müharibəsindən sonra biz Ermənistana demişik ki, gəlin, sərhədi ədalətli müəyyən eləyək. Yox, istəmirsinizsə, onda biz deyəcəyik, harada istəyirik orada da sərhəd olacaq. Neyləyəcək, kimə zəng edəcək, lap 100 dəfə zəng etsin, nəticəsi nə olacaq? Həm Azərbaycan xalqına, həm də bu bölgəyə maraq göstərənlərə bir daha demək istəyirəm ki, bizimlə hesablaşmadan burada bir addım da atılmamalıdır bundan sonra. Əminəm ki, mənim sözümü eşidirlər, bilirlər mən nəyi deyirəmsə, onu da edirəm.

Bugünkü bu bayram günü - mənim üçün və hamımız üçün ikiqat bayram günü bir daha onu göstərir ki, biz sülhsevər, biz qurub-yaradan xalqıq. Ermənilər Şuşanı viran qoyub, onu erməniləşdirməyə çalışıblar. Bu gün Aşağı Gövhər Ağa məscidinin təmiri ilə tanış olarkən orada içəridəki sütunların birində xaç gördüm. Yaxşı, məsciddə xaç ola bilər? Buna göz yumanlar, bu gün bizi hansısa cinayətlərdə, yaxud da ki, əməllərdə ittiham edənlər bunu görmürlərmi? Görmürlərmi ki, Ağdam məscidini tövləyə çevirmişdilər. Şuşanın 17 məscidindən 16-sını dağıdıb, birini isə başqa xalqa mənsub olan məscid kimi təqdim etməyə çalışırdılar. Biz buraya qayıdan kimi, dərhal guya orada aparılmış təmiri ləğv etdik, onu yenidən qurduq. Bütün şəhər və kəndlərimiz vandallar tərəfindən dağıdılıb. Bunu heç kim görmək istəmir. Amma hər kəs bunu görməlidir və görəcək. Çünki erməni vandallığını nə biz unudacağıq, nə də dünya unudacaq. Şuşanı nə qədər erməniləşdirməyə çalışsalar da, ona nail ola bilməyiblər. Çünki Şuşa əzəldən Azərbaycan şəhəri olub, işğal dövründə də öz azərbaycançılıq simasını qoruyub saxlayıb. Əgər ermənilər bunu özlərinə, necə deyərlər, doğma şəhər sayırdılarsa Şuşanı quraydılar, yaradaydılar, dağıtmayaydılar. Bir daş daş üstə qoyulmayıb. Biz gəlmişik burada əbədi yaşamağa və bundan sonra Azərbaycan Bayrağı bu torpaqlarda əbədi dalğalanacaq.

**Prezident İlham Əliyev**
Şuşada birinci yaşayış kompleksinin açılış mərasimindəki nitqindən
10 may 2024

## BAKI İLAHİYYAT KOLLECİNİN LOQOSUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ ÜÇÜN MÜSABİQƏ ELAN OLUNUB

Dini fəaliyyətin təşkili sahəsində ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 8 dekabr 2023-cü il tarixli müvafiq qərarı ilə "Azərbaycan İlahiyyat İnstitutu" publik hüquqi şəxsin yanında yaradılmış "Bakı İlahiyyat Kolleci" publik hüquqi şəxsin loqosunun müəyyən edilməsi üçün müsabiqə elan olunub.

**Müsabiqənin şərtləri aşağıdakılardır:**

1. Müsabiqədə hər bir Azərbaycan vətəndaşı iştirak edə bilər;
2. Loqo müasir və beynəlxalq imicə sahib olmalı, kollecin dünyəvi elm mərkəzi olduğu burada öz əksini tapmalıdır. Bununla yanaşı, loqoda dövlətçilik, milli kimlik, həmrəylik kimi məqamlar, eyni zamanda multikulturalizm və tolerantlıq dəyərlərini əks etdirən elementlər də yer ala bilər.
3. Loqotip dizaynının məntiqi izahı, forması, ölçüsü, rəngi, hərf seçimi və s. ilə bağlı əlavə məlumatlar da təqdim edilməlidir;
4. Loqo elektron formada (pdf, cdr, eps, ai) press@scara.gov.az e-mail ünvanına göndərilməlidir;
5. Müsabiqədə yalnız indiyə qədər istifadə olunmayan və hər hansı digər loqotiplərin elementlərini təkrarlamayan nümunələr iştirak edə bilər. Loqo nümunələri müvafiq komissiya tərəfindən qiymətləndirildikdən sonra qalib elan ediləcək;
6. Müsabiqənin qalibinə 500 AZN pul mükafatı təqdim olunacaq;
7. Loqo nümunələrinin son təqdimetmə tarixi 20.06.2024-cü il saat 18:00-a qədərdir;
8. Müsabiqənin qalibi 24.06.2024-cü il tarixində elan olunacaq.

# ŞUŞADA ÇÖL QALA MƏSCİDİNDƏ APARILAN BƏRPA İŞLƏRİ İLƏ TANIŞLIQ



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Çöl Qala məscidində aparılan bərpa işləri ilə tanış oldular.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Heydər Əliyev Fondu Şuşada daha bir tarixi abidənin - Çöl Qala məscidinin bərpası layihəsini həyata keçirir. "PAŞA Holdinq"in dəstəyi ilə aparılan bərpa işlərinə 2023-cü ildən başlanılıb.

Çöl Qala məscidi XIX əsrdə Şuşa şəhərində fəaliyyət göstərən 17 məsciddən biri olub. Məscid Şuşa şəhərinin yuxarı məhəllələrinə daxil olan Çöl Qala məhəlləsinin Qasım bəy Zakir küçəsində yerləşir. Bu tarixi abidə XIX əsrdə Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa olunub. Məscid minarəsiz formada tikilib, Şuşa şəhərinin əksər məscidləri kimi düzbucaqlı, ümumi girişi isə asimmetrik şəkildə düzülmüş əsas fasaddan ibarət olub.

Çöl Qala məscidinin interyeri tamamilə İslam memarlığına uyğundur. Məscidin daxili hissəsi səkkizguşəli dörd daş sütunla bəzədilib. Bu sütunlar ümumi ibadət zalını üç hissəyə ayırır. Məscidin mehrabı ilə üzbəüz ümumi ibadət zalının içərisində qadınlar üçün açıq ibadət zalı tikilib.

Məscid Şuşa şəhərinin işğalından sonra ermənilər tərəfindən dağıdılıb və talan edilib.

Çöl Qala məscidinin yaxınlığında isə XIX əsrə aid Çöl Qala bulağı yerləşir. Bulağın divarları dördbucaq formasında olub və yaxınlığında yerləşən məscidlərin üslubunda tikilib. İşğal dövründə bulaq da dağıdılıb, daş kitabələri məhv edilib.

# "TRANSFORMATİV DİALOQ: SÜRƏTLƏ DƏYİŞƏN DÜNYADA SÜLH NAMİNƏ ALYANSLARIN QURULMASI" MÖVZUSUNDA QLOBAL DİALOQ FORUMUNUN İŞTİRAKÇILARINA



Hörmətli Forum iştirakçıları!

Sizi Kral Abdullah bin Əbdüləziz Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAICIID) Lissabon şəhərində təşkil etdiyi Qlobal Dialoq Forumunun öz işinə başlaması münasibətilə salamlamaqdan məmnunluq duyuram.

Qloballaşan və sürətlə transformasiya olunan müasir dünyada son dərəcə mürəkkəb ictimai-siyasi proseslər baş verir, etnik-dini zəmində münaqişələr və qütbləşmələr, irqi ayrı-seçkilik, dini ekstremizm, ksenofobiya kimi təhlükəli təzahürlər müşahidə edilir. Beynəlxalq təhlükəsizliyi və bəşəriyyətin əmin-amanlığını təhdid edən belə hallara qarşı mübarizədə dünya dinlərinin sülh və həmrəylik çağırışlarına, sivilizasiyalararası dialoqa, dünyəvi və dini ittifaqların birgə səylərinə ciddi ehtiyac vardır.

Müxtəlif din və inanc mənsublarını, dini liderləri, vətəndaş cəmiyyəti nümayəndələrini və siyasətçiləri bir araya gətirən, insanlar arasında ədaləti, sülhü, sosial-mənəvi vəhdəti təşviq edən KAICIID tərəfindən böhranlı vəziyyətlərdə sülh quruculuğu, inklüziv cəmiyyət və ətraf mühitlə bağlı aktual problemlərin müzakirəyə çıxarılmasını təqdirəlayiq hesab edirəm.

Fərqli sivilizasiyaların qovşağında yerləşən Azərbaycanda heç vaxt etnik-dini zəmində ayrı-seçkilik və qarşıdurma baş verməmiş, tarixən qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olmuşdur. Tolerantlıq və multikultural dəyərlər Azərbaycan cəmiyyətinin demokratik birgəyaşayış normasıdır. Bakıda keçirilən ənənəvi Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Beynəlxalq Humanitar Forum, Dünya Dini Liderlərinin Sammiti kimi nüfuzlu tədbirlər mədəniyyətlərarası münasibətlərin inkişafında mühüm rol oynayır. Biz inanırıq ki, etnik-mədəni müxtəliflik ayırıcı xətt deyil, əksinə, xalqlar arasında ahəngdar inkişafa xidmət edən unikal sərvətdir.

Bu ilin noyabrında Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində nəzərdə tutulmuş dünya dini liderlərinin zirvə görüşü, əminəm ki, qlobal iqlim dəyişmələri problemlərinin həllində siyasət və din xadimlərinin həmrəyliyinin vacibliyini bir daha təsdiq edəcəkdir.

Hazırda planetimizin müxtəlif bölgələrində, fərqli coğrafiyalarda baş verən geostrateji ziddiyyətlər beynəlxalq təhlükəsizlik arxitekturasının dəyişməkdə olduğunu göstərir, ikitərəfli və çoxtərəfli münasibətlərdə yeni yanaşmalar tələb edir. Müasir çağırışlar dinin cəmiyyət həyatında və beynəlxalq münasibətlərdə rolunun düzgün müəyyənləşdirilməsi, dindən siyasi məqsədlər üçün istifadəyə yol verilməməsi və sivilizasiyalararası əməkdaşlığın gücləndirilməsi zərurətini qarşıya qoyur.

Bu gün bəşəriyyətin üzləşdiyi qlobal problemlərin vaxtında qarşısının alınması üçün hər kəs öz məsuliyyətini dərk etməli, dövlət rəhbərlərinin və dini liderlərin bütün səy və imkanları narahat dünyamızın firavan, sabit və dayanıqlı gələcəyi naminə səfərbər olunmalıdır.

İnanıram ki, KAICIID-in yüksəksəviyyəli Qlobal Forumu konstruktiv müzakirələr ruhunda keçəcək, beynəlxalq sülhə və təhlükəsizliyə, müxtəlif tərəflər arasında qarşılıqlı anlaşmaya, sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa əhəmiyyətli töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, Forumun işinə uğurlar diləyirəm.

**İlham Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 may 2024-cü il

# PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA MAMAYI MƏSCİDİNİN BƏRPADAN SONRA AÇILIŞINDA İŞTİRAK EDİBLƏR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Mamayı məscidinin bərpadan sonra açılışında iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma məsciddə görülən işlər barədə məlumat verilib.

Bildirilib ki, Heydər Əliyev Fondunun "PAŞA Holdinq"in dəstəyi ilə məsciddə və məscid ərazisindəki bulaqda apardığı bərpa işlərinə 2023-cü ildə başlanılıb. Mamayı məscidi şəhərin mərkəzi hissəsində yerləşən Mamayı məhəlləsində XIX əsrin sonlarında tikilib. Düzbucaqlı plan quruluşu olan ikimərtəbəli məscidin sütunlu interyeri var. Məhəllə məscidləri kimi Mamayı məscidinin də damında azan vermək üçün taxtadan güldəstə quraşdırılmışdır. Mamayı məscidi sovet hakimiyyəti illərində poeziya evi kimi də fəaliyyət göstərib. Şəhərin digər məhəllələri kimi burada da məscid, bulaq, kiçik meydan və hamam olub. Bildirilib ki, işğal dövründə məscid və onun yanında yerləşən bulaq yararsız hala salınıb. Erməni işğalçıları şəhərdəki bir çox abidələr kimi ərazidəki Mamayı bulağını da erməniləşdirməyə çalışmışdılar. Bulağın üzərindəki yazılar silinib və yerinə xaç işarəsi həkk olunmuşdu. Bundan başqa, ermənilər saxtakarlıq edərək bulağın daşlarının üzərinə erməni və rus dilində yazılmış lövhə də həkk etmişdilər. Aparılan bərpa işləri nəticəsində artıq burada erməni vandalizminin bütün izləri aradan qaldırılıb.

Qeyd edilib ki, Mamayı məscidində tarixən mehrab sərt ağac materialından istifadə olunub. Bərpa zamanı bütün işlər tarixi görkəm nəzərə alınmaqla aparılıb. Məscidin pəncərələri tarixi görünüşünə uyğun bərpa edilib, qarşı tərəfdə yararsız halda olan döşəmə yenidən qurulub.

Məlumat verilib ki, bundan əlavə, Şuşada Heydər Əliyev Fondu tərəfindən Yuxarı Gövhər Ağa, Saatlı məscidləri, eləcə də Mehmandarovların malikanə kompleksi ərazisindəki məscid bərpa edilib və 2023-cü ilin may ayında istifadəyə verilib.

# ŞUŞADA AŞAĞI GÖVHƏR AĞA MƏSCİDİNDƏ APARILAN BƏRPA İŞLƏRİ İLƏ TANIŞLIQ



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri ilə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma məsciddə görülən işlər barədə məlumat verilib.

Qeyd edilib ki, bərpa işləri Heydər Əliyev Fondu tərəfindən "PAŞA Holdinq"in dəstəyi ilə həyata keçirilir. Layihəyə Avstriya, İtaliya, Latviya və Türkiyədən olan mütəxəssislər cəlb olunub. XIX əsrdə Kərbəlayi Səfixan Qarabağinin memarlığı ilə ərsəyə gələn Aşağı Gövhər Ağa məscidi İbrahim xanın qızı Gövhər Ağa tərəfindən Şuşada inşa etdirilmiş məscidlərdən birincisi sayılır. Şuşanın işğalı zamanı Aşağı Gövhər Ağa məscidi erməni vandalizminin qurbanına çevrilmişdi. Məscidin binası və minarələri ermənilərin zirehli texnikalarının atəşlərinə məruz qalaraq ciddi zədələnmişdi.

Bərpa prosesi ilə tanışlıq zamanı Şuşa işğal altında olduğu dövrdə ermənilərin Aşağı Gövhər Ağa məscidində törətdikləri vandalizm faktları barədə məlumat verilib. Bildirilib ki, bərpa işləri zamanı divarda müxtəlif yazılar, o cümlədən divara həkk olunmuş xaç işarəsi aşkarlanıb.

Bərpa işləri zamanı yerli və beynəlxalq ekspertlər məscidin mövcud vəziyyətinə dair qiymətləndirmə və layihələndirmə apardılar. Konservasiya və restavrasiya işləri məscidin ilkin memarlıq üslubuna uyğun olaraq həyata keçirilir. Xarici mütəxəssislərin iştirakı ilə qübbələrin daxili səthində tarixi naxış hissələrinin mikroinyeksiya üsulu ilə bərkidilməsi həyata keçirilib. Məscidin minarələri bərpa olunub, dam və döşəmə örtükləri dəyişdirilməklə bir sıra təmir işləri həyata keçirilir. Bərpa işləri, eyni zamanda, mədrəsə bölməsini də əhatə edir.

# AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Qədim dövlətçilik tarixinə malik olan Azərbaycanda ayrı-ayrı xalqların və etiqadların mənsubları yüz illərdir ki, sülh və əmin-amanlıq şəraitində yaşayır, heç bir ayrı-seçkiliyə məruz qalmadan dil və mədəniyyətini, etnik-mədəni özünəməxsusluğunu qoruyub saxlayırlar. Xalqımıza xas zəngin tolerantlıq ənənələrinin, multikultural dəyərlərin təbliği və təşviqi ölkəmizdə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Bu gün Azərbaycan Respublikası müxtəlif dinlər və etiqadlar arasında qarşılıqlı hörmət və etimad mühitinin, demokratik birgəyaşayış prinsiplərinin mövcud olduğu unikal bir məkandır və dünyada sivilizasiyalararası münasibətlərin inkişafına mühüm töhfələr verir.

Cəmiyyətimizdə dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsin mədəni özünüifadəsi üçün bərabər imkanlar yaradılmışdır. Təqdirəlayiq haldır ki, ölkəmizin bütün etnik və dini azlıqları, o cümlədən xristian vətəndaşlarımız ictimai-siyasi həyatın bütün sahələrində yaxından iştirak edir, Azərbaycanın tərəqqisi və çiçəklənməsi naminə vətəndaşlıq borcunu layiqincə yerinə yetirirlər.

Əziz həmvətənlər!

Dirçəlişin, yeniliyin, mərhəmət və xeyirxahlıq duyğularının rəmzi olan Pasxa bayramı münasibətilə bir daha hər birinizə cansağlığı, xoşbəxtlik, ailələrinizə firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 2 may 2024-cü il

# DİNİ LİDERLƏR FÜZULİ ŞƏHƏRİNDƏ OLUBLAR



VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində dini liderlər işğaldan azad edilmiş Füzuli şəhərində olublar.

Nümayəndə heyəti əvvəlcə Füzuli Beynəlxalq Hava Limanına gəlib. Onlara beynəlxalq hava limanı haqqında məlumat verilib. Bildirilib ki, Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub və istənilən hava gəmisini qəbul etmək imkanı var.

Qonaqlar Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Füzulidə törədilən dağıntılarla, həmçinin rayon işğaldan azad edildikdən sonra Azərbaycan dövləti tərəfindən həyata keçirilən bərpa-tikinti işləri ilə tanış olublar.

Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev qonaqlara 30 illik işğal dövründə ermənilərin ölkəmizə qarşı törətdikləri cinayətlər barədə ətraflı məlumat verib. Bildirilib ki, erməni vandalları işğal etdikləri şəhər və kəndlər kimi Füzuli şəhərini də talayıb, yer üzündən siliblər. Bütün evlər, sosial obyektlər dağıdılıb, təsərrüfatlar məhv edilib.

Diqqətə çatdırılıb ki, 44 günlük Vətən müharibəsində qazanılan qələbə nəticəsində işğaldan azad olunan ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanılıb. Füzuli şəhərində ilk yaşayış məhəlləsinin inşası yekunlaşıb və keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışı başlayıb.

Nümayəndə heyəti sonra Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbə gəlib. Məlumat verilib ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq inşa edilən məktəb 960 şagird yerlikdir. İki mərtəbə və zirzəmidən ibarət məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, 500 yerlik akt zalı, idman zalı, 320 yerlik yeməkxana, kitabxana var. Məktəbin həyətyanı ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, söhbətgahlar, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa edilib. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilib.

Qonaqlar daha sonra Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinə gəliblər. Bildirilib ki, Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi qardaş qazax xalqının Azərbaycan xalqına hədiyyəsidir. Təməli 2023-cü ilin martında qoyulan Mərkəz 1,5 hektar ərazidə yaradılıb. Obyektin tikinti sahəsi 2700 kvadratmetrdir. İkimərtəbəli binada 600 uşağın bir neçə növbədə məktəbdənkənar təhsil alması üçün hər cür şərait yaradılıb. Burada mühazirə zalı, şahmat və kulinariya sinifləri, incəsənət və heykəltaraşlıq studiyası, xoreoqrafiya və idman zalı, səsyazma kabineti, musiqi və vokal sinfi, foto-video montaj, veb-dizayn və robototexnika kabinetləri, akt zalı, 3D modelləşdirmə sinfi var. Mərkəzdə IT-startaplara və Azərbaycanın milli mədəniyyətinə, o cümlədən xalçaçılıq sənətinə xüsusi diqqət yetiriləcək.

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində dini liderlər Füzuli şəhəri ilə tanışlıqdan sonra Şuşa şəhərinə səfər ediblər.

# DİNİ LİDERLƏRİN ŞUŞA GÖRÜŞÜNÜN BƏYANNAMƏSİ QƏBUL OLUNUB

VI Bakı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində dini liderlərin Şuşa görüşünün Bəyannaməsi qəbul olunub.

Azərbaycanın mədəniyyət paytaxtı Şuşada dünya dini liderlərinin Şuşa Bəyannaməsi yekdilliklə qəbul edilib. İştirakçılar Prezident İlham Əliyevin müəllifi olduğu “Bakı Prosesi”ni alqışlayaraq, cari ilin noyabrında Bakıda keçiriləcək COP29-un uğurla təşkil ediləcəyinə əminiklərini bildiriblər.

Qeyd edək ki, VI Bakı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində dini liderlərin Şuşa görüşü keçirilib.

Görüşdə 38 ölkəni və 10 beynəlxalq təşkilatı təmsil edən müsəlman, xristian, yəhudi, buddist, hinduist və digər dinlərin liderləri və nümayəndələri iştirak ediblər.

Səfər iştirakçıları Şuşada tarixi məkanlarla, həmçinin burada aparılan bərpa-quruculuq işləri ilə də tanış olublar.



# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ:
## AZƏRBAYCAN XALQI DİNİ AYRI-SEÇKİLİYİN ƏN QƏDDAR TƏZAHÜRLƏRİ İLƏ QARŞILAŞIB

Multikultural ənənələrinə sədaqətinə baxmayaraq, Azərbaycan xalqı dini ayrı-seçkiliyin ən qəddar təzahürləri ilə qarşılaşıb. Ermənistanın 30 ilə yaxın müddət ərzində işğal altında saxladığı ərazilərimizdə 67 məsciddən 65-i tamamilə, 2-si isə qismən məhv edilərək yararsız hala salınıb. Bir çox digər İslam abidələri dağıdılıb və yer üzərindən silinib. Bunların sırasında yüzlərlə məscid, türbə, qəbirüstü abidələr, inanc yerləri və digər ibadətgahlar var. 200 qəbiristanlıq tamamilə, 600 qəbiristanlıq isə qismən dağıdılıb. Xocalı qəbiristanlığı texnika vasitəsilə darmadağın edilib.




Bunu VI Bakı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində dini liderlərin Şuşa görüşündə çıxış edən Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov deyib.

Dövlət Komitəsinin sədri bildirib ki, indiki Ermənistan ərazisində vaxtilə azərbaycanlıların yaşadığı bölgələrdə 500 qəbiristanlıq, yüzlərlə məscid dağıdılaraq tamamilə yox edilib: "Lakin hətta dini abidələrimizə bu amansız münasibət belə tarixi ənənələrimizə, multikultural dəyərlərimizə təsir etməyib. Azərbaycan xalqı dini və etnik tolerantlığı öz milli kimliyinin vacib bir elementi kimi yaşatmaqda davam edir".

"Biz indi elə bir tarixi mərhələdəyik ki, dünya düzəninin faktiki olaraq yenidən qurulduğu çətin və ziddiyyətli bir dövrdə gələcəyə dair aydın, konstruktiv baxışlar sistemi formalaşmalıdır. Bunun ən faydalı yolu mədəniyyətlər və dinlərarası dialoqdur. Çünki sülh, əməkdaşlıq və birgəyaşayışın indiki mürəkkəb beynəlxalq münasibətlər sistemində alternativi yoxdur. Azərbaycan bu qlobal məsələnin ümumbəşəri mənafelərə uyğun həllinə öz töhfəsini verməyə hazırdır", - deyə o əlavə edib.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Ramin Məmmədov mayın 1-də Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək məqsədilə ölkəmizə səfər edən ABŞ-nin Etnik Anlaşma Fondunun prezidenti və Hampton sinaqoqunun təsisçisi ravvin Mark Şnayer ilə görüşüb.



DQİDK sədri Ramin Məmmədov Prezident İlham Əliyevin dövlət-din münasibətlərinə xüsusi həssaslıqla yanaşdığını vurğulayıb, ölkəmizdə dövlət-din münasibətləri, tolerantlıq sahəsində görülən işlər və həyata keçirilən layihələrdən danışıb. Həmçinin Azərbaycanı beynəlxalq aləmə layiqincə təqdim edən amillər sırasında respublikamızın dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, milli və ümumbəşəri dəyərlərin, multikulturalizm ənənələrinin qorunub saxlanmasına və inkişaf etdirilməsinə, bu istiqamətdəki problemlərin həllinə dəyərli töhfələr verməsi qeyd olunub.

ABŞ-nin Etnik Anlaşma Fondunun prezidenti və Hampton sinaqoqunun təsisçisi ravvin Mark Şnayer Azərbaycanın dünyadakı tolerant imicindən, mədəniyyətlər, sivilizasiyalar, dinlərarası dialoq prosesində aparıcı mərkəzlərdən olmasından məmnunluq duyduğunu dilə gətirib, ölkəmizin nümunəvi təcrübəyə malik platforma kimi mühüm rolunu vurğulayıb.

Görüşdə, həmçinin layihələrin həyata keçirilməsi imkanları və əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

***



Həmin gün Dövlət Komitəsinin sədri Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək məqsədilə ölkəmizə səfər edən Rusiyanın baş ravvini Berl Lazar ilə görüşüb.

Görüşdə DQİDK-nın sədri Ramin Məmmədov Azərbaycanın malik olduğu nümunəvi multikultural və tolerantlıq modelindən danışıb, Prezident İlham Əliyevin məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində tolerantlıq ənənələrinin daha da inkişaf etdirilərək dövlət siyasətinə çevrildiyini vurğulayıb. Azərbaycanda nümunəvi birgəyaşayış mühiti, məscidlər, eləcə də xristian və yəhudi dini-mənəvi abidələrinə göstərilən diqqətdən bəhs edən Komitə sədri bildirib ki, dinlərarası harmoniyanın günümüzədək qorunub saxlanılmasında xalqımıza xas olan humanizm və multikultural dəyərlərlə yanaşı, düşünülmüş dövlət siyasətinin də müstəsna rolu var.

Rusiyanın baş ravvini Berl Lazar qeyd edib ki, Azərbaycan xalqının zəngin multikulturalizm təcrübəsi, nümunəvi tolerant keyfiyyətlərə sahib olması beynəlxalq səviyyədə də tanınır və yüksək qiymətləndirilir.

Eyni zamanda görüş çərçivəsində dinlərarası dialoqa dair bir sıra məsələlərə toxunulub. Dünya müstəvisində dinlərarası dialoqun yeni reallıq, çağırış, o cümlədən perspektiv və imkanları müzakirə olunub.

***

Mayın 3-də Dövlət Komitəsinin sədri Ramin Məmmədov Gürcüstan nümayəndə heyəti ilə görüşüb.

Görüş zamanı Azərbaycanla Gürcüstan arasındakı tarixi dostluq əlaqələrinə toxunan DQİDK sədri iki dövlət arasındakı münasibətlərin daha da inkişaf edərək yeni mərhələyə yüksəldiyini bildirib. Ölkəmizdəki sağlam dini mühitin, multikultural birgəyaşayış təcrübəmizin önəmi barədə danışan R.Məmmədov bu dəyərlərin qorunub saxlanılması və möhkəmləndirilməsi, eyni zamanda əldə edilən nailiyyətlərin beynəlxalq ictimaiyyətə təbliğinin vacibliyini vurğulayıb.



Ramin Məmmədov Gürcüstanda yaşayan soydaşlarımızın milli və dini kimlikləri, eləcə də islami dəyərlərinin qorunması, yaşadılması, habelə bu istiqamətdə fəaliyyətlərini daha da genişləndirmələrinin əhəmiyyətinə diqqət çəkib.

Səmimi qəbula görə təşəkkürünü bildirən qonaqlar Bütün Gürcüstan Müsəlmanları İdarəsinin fəaliyyət istiqamətləri, eləcə də Gürcüstanın dini-mənəvi mühiti barədə məlumat veriblər. Azərbaycanın müvafiq sahədə fəaliyyət göstərən bütün qurumları ilə əməkdaşlıq və əlaqələrin daha da güclənəciyinə əminliklərini ifadə ediblər.

***

Mayın 3-də Dövlət Komitəsində daha bir görüş Rusiya Müsəlmanları Ruhani İdarəsi sədrinin birinci müavini Dəmir Muxetdinov ilə baş tutub.

Dövlət Komitəsinin sədri qonağı ölkəmizin Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu, Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi dövlət-din modeli, birgəyaşayış mühiti, habelə dinlərarası dialoqun təşviqi istiqamətində fəaliyyətlər barədə məlumatlandırıb.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



Rusiya Müsəlmanları Ruhani İdarəsi sədrinin birinci müavini Dəmir Muxetdinov Azərbaycanın gündən-günə dinlərarası dialoq mərkəzi kimi mövqeyini gücləndirdiyini, bu cür təşəbbüslərin bəşəri həmrəyliyə müsbət təsir göstərdiyini vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər müzakirə olunub.

***

Mayın 3-də DQİDK sədri Ramin Məmmədov, həmçinin Şimali Kipr Türk Cümhuriyyəti Diyanət İşləri İdarəsinin sədri Ahmet Ünsal və Azərbaycanda səfərdə olan Türkiyə nümayəndə heyəti ilə görüşüb.



Görüşdə tarixi köklərimizdən gələn və hər iki dövlət başçısının dəstəyi ilə daha da möhkəmlənən Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri məmnunluqla vurğulanıb. Bütün istiqamətlərdə olduğu kimi, dini sahədə də əlaqələrin yüksək səviyyədə mövcudluğu və davamlı inkişaf etdirilməsinin vacibliyi qeyd olunub. Müvafiq sahədə qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivləri və hazırkı vəziyyəti müzakirə edilib. Həmçinin Şimali Kiprlə Azərbaycan arasında dini-mənəvi və mədəni əlaqələrin səviyyəsinin yüksəlməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Qeyd edək ki, Türkiyə nümayəndə heyətinin tərkibinə Türkiyə Respublikası Diyanət İşləri İdarəsinin Strategiyanın İnkişafı şöbəsinin müdiri Mustafa Irmaklı, Avrasiya ölkələri şöbəsinin müdiri Salih Gör, həmçinin Mətbuat və ictimaiyyətlə əlaqələr müşaviri Enes Kaplan daxildir. Görüşdə Türkiyənin Azərbaycandakı Səfirliyinin Din xidmətləri müşaviri İhsan Açık da iştirak edib.

***

Mayın 3-də DQİDK sədri Ramin Məmmədov Amerika Birləşmiş Ştatlarının İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin rəhbər heyəti, "On iki Həvari Kvorumu"nun üzvü Deyvid Bednar, İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin "Yetmiş Həvari Kvorumu"nun üzvü Cek Gerard, Stirlinq Fondunun prezidenti Mayls Hansen və Fondun baş icraçı direktoru Edvard Rou ilə də görüşüb.

Görüşdə Azərbaycandakı tolerantlıq mühitinin, birgəyaşayış mədəniyyətinin dövlət-din konsepsiyasına uyğun daha da möhkəmləndirildiyi, bu sahənin dövlət siyasətinin prioritet istiqamətinə çevrildiyi vurğulanıb. Prezident İlham Əliyev tərəfindən mütəmadi olaraq



ölkəmizdəki dini konfessiyaların dəstəklənməsi və fəaliyyətlərində ahəngdarlığın təmin edilməsi məqsədi ilə İslam və qeyri-islam dini icmalarına maddi yardım ayrıldığı, onlar arasında ayrı-seçkiliyə yol verilmədiyi diqqətə çatdırılıb.

Nümayəndə heyətinin üzvləri ölkəmizdəki dinlərarası harmoniya mühitinin əyani şahidi olduqlarını, o cümlədən Azərbaycanın tolerantlıq təcrübəsinin yayılmasının önəmini qeyd ediblər.

Görüş zamanı gələcək layihələr ətrafında fikir mübadiləsi aparılıb.

***

Mayın 3-də Dövlət Komitəsinin sədri Argentina Respublikasının Etiqad işləri üzrə katibi Fransisko Sançez ilə görüşüb.



Qonağa ölkə rəhbərliyinin mədəni müxtəlifliyin qorunub saxlanılmasına və inkişafına yönəlmiş siyasəti barədə ətraflı məlumat verən Ramin Məmmədov Azərbaycanın multikulturalizm, tolerantlıq, humanitar əməkdaşlıq mərkəzinə çevrildiyini diqqətə çatdırıb. Bildirib ki, cəmiyyətdə sülhün bərqərar olması üçün sözügedən istiqamətlərdə birgə əməkdaşlıq və dialoq çox önəmlidir. Azərbaycan bu qlobal məsələnin ümumbəşəri mənafelərə uyğun həllinə öz töhfəsini verir.

Ermənistanın Azərbaycana qarşı yürütdüyü təcavüz siyasətinə diqqət çəkən R.Məmmədov işğaldan azad olunan torpaqlarımızda dağıdılan və yer üzündən silinən tarixi-dini abidələrdən və hazırda gedən bərpa-quruculuq işlərindən bəhs edib.

Argentina Respublikasının Etiqad işləri üzrə katibi Fransisko Sançez öz növbəsində çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik olan Azərbaycanda tolerantlığın, qarşılıqlı hörmət, dostluq və tərəfdaşlıq kimi dəyərlərin qorunub saxlanılması, eləcə də təbliğini yüksək qiymətləndirib.

Tərəfləri maraqlandıran digər məsələlərin müzakirəsi ilə yekunlaşan görüşdə Argentinanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Marianxeles Belluşi də iştirak edib.

***

Mayın 3-də Albaniya Beynəlxalq Tədqiqatlar İnstitutunun İdarə Heyətinin üzvü Arben Ramkaj da Dövlət Komitəsində olub.

DQİDK sədri qonağa ölkəmizdə dinlərarası harmoniya, multikultural və tolerant dəyərlərə verilən önəmdən, dini etiqad azadlığının yüksək səviyyədə təmin edilməsi istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, dünyəvi dövlət olan Azərbaycanın dini konfessiyalara münasibətində bərabərlik prinsipi mütləq mənada qorunur. Ölkəmizin bu sahədə tarixi təcrübəyə malik olmasına diqqəti çəkən Ramin Məmmədov Azərbaycanda müxtəlif dini, etnik qrupların birgəyaşayış mühitinin sağlam təməllər üzərində qurulduğunu diqqətə çatdırıb.



Təmsil etdiyi qurum barədə məlumat verən Albaniya Beynəlxalq Tədqiqatlar İnstitutunun İdarə Heyətinin üzvü Arben Ramkaj ölkəmizdə müşahidə etdiyi nümunəvi dini mühitə görə məmnunluğunu ifadə edib.

Görüşün sonunda qonağı maraqlandıran suallar cavablandırılıb.

***

Mayın 3-də DQİDK sədri Ramin Məmmədov ilə Yəhudi Mədəniyyəti üzrə Memorial Fondun İcraiyyə Komitəsinin sədri Fernando Lottenberq arasında görüş baş tutub.



DQİDK sədri Azərbaycanda dövlət səviyyəsində tolerantlıq və multikulturalizm ənənələrinin inkişafına, o cümlədən İslam dini ilə yanaşı, xristian, yəhudi və digər dinlərin mənsublarına göstərilən hərtərəfli diqqət və dəstəkdən bəhs edib. Ramin Məmmədov Azərbaycanda 8 yəhudi icmasının dövlət qeydiyyatına alındığını, habelə sinaqoq və məktəblərin fəaliyyət göstərdiyini bildirib.

F.Lottenberq ölkəmizin multikulturalizm strategiyasının dünyada böyük maraqla qarşılandığını diqqətə çatdıraraq respublikada əsrlər boyu sülh və əmin-amanlıq içərisində yaşayan yəhudi icmasına göstərilən qayğını xüsusi vurğulayıb. Ölkəmizdə yəhudi icmasının nümayəndələrinə göstərilən səmimi münasibəti, eləcə də heç vaxt anti-semitizm hadisəsinin baş verməməsini Azərbaycan tolerantlığının parlaq nümunələrindən biri kimi məmnunluq hissi ilə qeyd edib.

davamı səh. 7

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR

əvvəli səh. 6

Mayın 3-də Dövlət Komitəsinin sədri həmçinin İƏT-in Avropa İttifaqındakı keçmiş daimi müşahidəçisi İsmət Cahan ilə görüşüb.



Prezident İlham Əliyevin tarixdən gələn ənənələrə istinad etməklə multikulturalizmi dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirməsinə diqqət çəkən DQİDK sədri Ramin Məmmədov müxtəlif konfessiyalara göstərilən diqqət və qayğıdan bəhs edib. Sədr ölkəmizdə dövlətin din sahəsində siyasəti, dini etiqad azadlığının təminatı barədə danışıb. Bildirib ki, Azərbaycan dünyəvilik prinsiplərinə əsaslanmaqla multikultural dəyərləri yaşatmaqda və inkişaf etdirməkdədir. R.Məmmədov vurğulayıb ki, Azərbaycan dünya üçün sülhü təbliğ edən platforma, strategiya, model yaradıb. Bunun yaranmasında ölkəmizdə mövcud olan bütün dini konfessiyalar, icmalar xüsusi fəallıq göstərib, mühüm rol oynayıblar.

Səmimi görüşə görə təşəkkürünü bildirən İƏT-in Avropa İttifaqındakı keçmiş daimi müşahidəçisi İsmət Cahan bildirib ki, bu gün universal dəyərlər ancaq Qərb dəyərlərinə deyil, başqalarının da mənavi aləminə hörmət üzərində qurulan münasibətlər sisteminə əsaslanmalıdır. İnsanların sülh şəraitində yaşamasının önəmli olduğunu vurğulayan İ.Cahan dünyada siyasi və dini baxımdan ayrı-seçkiliyə son qoymaq üçün dinlər arasında dialoqun önəminə toxunub, Azərbaycanın bu sahədə təşəbbüskarlığını yüksək qiymətləndirib.

***

Mayın 4-də DQİDK sədri Ramin Məmmədov Amerika Dini Azadlıq Mərkəzinin rəhbəri, eyni zamanda Bakı



Beynəlxalq Multikulturalizm Mərkəzinin ABŞ-də təsisçi icraçı direktoru Janna Skot ilə görüşüb.

Görüşdə Azərbaycanda həyat tərzi olan multikulturalizmin, dinlərarası harmoniyanın təşviqinin dövlət siyasətinin prioritet istiqaməti olduğu vurğulanıb. Bildirilib ki, Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsinə, tolerantlıq ənənələrinin möhkəmləndirilməsinə, dini abidələrin təmir və bərpasına xüsusi önəm verir, mütəmadi olaraq dini icma rəhbərləri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır. Daha sonra qonaq Azərbaycanda tolerantlıq sahəsində görülən işlər və həyata keçirilən layihələr, o cümlədən DQİDK-nın fəaliyyəti barədə məlumatlandırılıb.

Görüşdə, eyni zamanda Azərbaycan multikulturalizm modelinin mütərəqqi bir model kimi təbliği istiqamətində görülən işlər və gələcək layihələr barədə müzakirələr aparılıb.

***

May ayının 4-də Pakistan İslam Respublikasının MUSLİM İnstitutunun direktoru, Cunaqad Ştatının Baş



naziri Sahibzadə Sultan Əhməd Əli də Dövlət Komitəsində olub.

Ramin Məmmədov Azərbaycanla Pakistan arasındakı səmimi dostluq və qardaşlıq münasibətlərinə toxunaraq ölkələrimizin müxtəlif sahələrdə uğurlu əməkdaşlığının əhəmiyyətini vurğulayıb. Komitə sədri Ulu Öndər Heydər Əliyevin dost ölkəyə səfəri ilə başlayan bu səmərəli əlaqələrin Prezident cənab İlham Əliyev tərəfindən inkişaf etdirildiyini, həm iki xalq arasında, həm də dövlətlər səviyyəsində biri-birinə dəstəyin yüksələn xətlə irəlilədiyini diqqətə çatdırıb.

Bütün sahələrdə olduğu kimi dini sahədə də əlaqələrin mövcudluğundan məmnunluğunu ifadə edən Sahibzadə Sultan Əhməd Əli bundan sonra da münasibətlərin möhkəmləndirilməsində birgə səylərin vacibliyini qeyd edib.

Səmimi keçən görüş müzakirələrlə yekunlaşıb.

***

Mayın 4-də daha bir görüş DQİDK sədri Ramin Məmmədov ilə Parisdəki Ərəb Dünyası İnstitutunun direktoru Karim İfrak arasında baş tutub.

Azərbaycandakı dövlət-din münasibətləri, tolerant və multikultural mühit haqqında qonağı məlumatlandıran DQİDK sədri ölkəmizdə bu sahədə həyata keçirilən böyük tədbirləri, milli-mənəvi dəyərlərin təbliğinə göstərilən diqqəti, dini fəaliyyət sahəsində atılan addımları diqqətə çatdırıb.

Karim İfrak dünyada ekstremizmin, zorakılığın yayıldığı bir vaxtda multikulturalizmin Azərbaycanda həyat tərzi kimi qəbul edilməsinin təqdirəlayiq olduğunu



qeyd edib. Azərbaycan İlahiyyat İnstitutu ilə rəhbəri olduğu institut arasında imzalanan anlaşma memorandumunun əhəmiyyətinə toxunan qonaq əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsinin önəmini vurğulayıb.

Görüşdə, eyni zamanda dinin siyasiləşdirilməsinin fəsadlarının, habelə getdikcə artmaqda olan islamofobiya təzahürlərinin qarşısının alınmasının vacibliyi barədə fikir mübadiləsi aparılıb.

***

DQİDK sədri Ramin Məmmədov mayın 7-də Amerika Sefardi Federasiyasının icraçı direktoru Ceyson Quberman ilə görüşüb.

Görüşdə Dövlət Komitəsinin sədri Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi xəttin hazırda Prezident İlham Əliyev tərəfindən inamla davam və inkişaf etdirildiyini bildirib. Ramin Məmmədov qeyd edib ki,




Azərbaycanda dövlət tərəfindən hər il dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi üçün maliyyə vəsaiti ayrılır, tarixi-dini ibadət evləri bərpa olunur, yeniləri tikilib inanclı insanların ixtiyarına verilir. Ölkəmizdə din sahəsində aparılan siyasətin əsasında dini etiqad azadlığı prinsiplərinin dayandığını diqqətə çatdıran DQİDK sədri, eyni zamanda dinlər və mədəniyyətlərarası dialoqun inkişafına verilən önəm barədə danışıb.

Ceyson Quberman Azərbaycandakı dini harmoniyanın, müxtəlif dini icmalar arasındakı sıx əməkdaşlığın təqdirəlayiq hal olduğunu vurğulayıb. Azərbaycanın dünyəvilik modelinin əhəmiyyətinə diqqət çəkərək ölkəmizin uğurlu təcrübəsinin, müxtəlif xalqların, dini konfessiyaların birgəyaşayış mədəniyyətinin daha geniş şəkildə təbliğ edilməsinin vacibliyini bildirib.

# LİSSABONDA KAICIID-İN TƏŞKİLATÇILIĞI İLƏ QLOBAL DİALOQ FORUMU KEÇİRİLİB




May ayının 15-16-da Portuqaliyanın Lissabon şəhərində Kral Abdullah bin Əbdüləziz Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAICIID) təşkilatçılığı ilə Qlobal Dialoq Forumu keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qlobal Dialoq Forumunun iştirakçılarına ünvanlanmış məktubunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov oxuyub.

Prezident İlham Əliyevin məktubunda qeyd olunub ki, fərqli sivilizasiyaların qovşağında yerləşən Azərbaycanda heç vaxt etnik-dini zəmində ayrı-seçkilik və qarşıdurma baş verməmiş, tarixən qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olmuşdur.

“Tolerantlıq və multikultural dəyərlər Azərbaycan cəmiyyətinin demokratik birgəyaşayış normasıdır. Bakıda keçirilən ənənəvi Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Beynəlxalq Humanitar Forum, Dünya Dini Liderlərinin Sammiti kimi nüfuzlu tədbirlər mədəniyyətlərarası münasibətlərin inkişafında mühüm rol oynayır. Biz inanırıq ki, etnik-mədəni müxtəliflik ayırıcı xətt deyil, əksinə, xalqlar arasında ahəngdar inkişafa xidmət edən unikal sərvətdir”, - deyə dövlətimizin başçısının məktubunda qeyd olunub.

Azərbaycan Prezidentinin məktubunda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində nəzərdə tutulmuş dünya dini liderlərinin zirvə görüşünün qlobal iqlim dəyişmələri problemlərinin həllində siyasət və din xadimlərinin həmrəyliyinin vacibliyini bir daha təsdiq edəcəyinə əminlik ifadə olunub.

KAICIID Direktorlar Şurasının üzvü, Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə Forumda çıxış edib.

Qeyd edək ki, “Transformativ dialoq: Sürətlə dəyişən dünyada sülh naminə alyansların qurulması” mövzusuna həsr edilmiş Forumda münaqişələrin nəticəsi olaraq yaranmış böhranlar zamanı gərginliyin qarşısını almaq, postmünaqişə dövründə dialoq və etimad quruculuğu istiqamətində tədbirlərə dəstək məqsədilə dini liderlərin və qurumların öz ənənələrinə əsaslanaraq verə biləcəyi töhfələrlə bağlı müzakirələr aparılıb.

Tədbirdə dünyada urbanizasiyanın artması ilə əlaqədar dini və etnik azlıqların təcrid edilməsi ilə bağlı narahatedici tendensiyalar barəsində də fikir mübadiləsi aparılıb. Eyni zamanda, tədbirin gündəliyinə təbii resursların mühafizəsi və iqlim dəyişikliyi problemlərinin həllində dini və dünyəvi tərəfdaşlığın roluna dair müzakirələr daxil edilib.

Qeyd edək ki, KAICIID dünyanın bütün əsas dinlərinin nümayəndələri tərəfindən idarə olunan yeganə hökumətlərarası təşkilatdır. Təşkilatın missiyası müxtəlif dinlərə və mədəniyyətlərə malik insanlar arasında sülh, tolerantlıq və anlaşmanı təşviq etməkdir. Qlobal Dialoq Forumunun məqsədi BMT-nin 2030-cu il Gündəliyində təsbit edilən ümumi məqsədlərə doğru transformativ dialoq proseslərinin qurulması üçün yol xəritəsi haqqında qərar qəbul etməkdir.

# DÖVLƏT KOMİTƏSİ İLƏ PENİTENSİAR XİDMƏT ARASINDA BİRGƏ TƏDBİRLƏR PLANI İMZALANIB




Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Ədliyyə Nazirliyi Penitensiar Xidmətin rəhbərliyi arasında birgə fəaliyyətin təşkili ilə bağlı görüş keçirilib.

Penitensiar xidmətin Baş idarəsində keçirilən görüşdə Ədliyyə nazirinin müavini – Penitensiar xidmətin rəisi ədliyyə general-mayoru Mirsaleh Seyidov qonaqları salamlayaraq, ədliyyə naziri cənab Fərid Əhmədovun tapşırığına əsasən məhkumların, həbs edilmiş şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində dövlət qurumları ilə sıx əməkdaşlığın həyata keçirildiyini qeyd edib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin hər zaman məhkumların vicdan və dini etiqad azadlıqlarının təmin edilməsi istiqamətində əməli addımlar atdığını bildirən nazir müavini Komitə ilə Penitensiar Xidmət arasında uzun illər sıx əməkdaşlığın mövcud olduğunu, azadlıqdan məhrum edilmiş şəxslərin sosial adaptasiyasında və islah işlərində birgə layihələrin uğurla icra olunduğunu vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Azərbaycanda əsrlər boyunca müxtəlif dinlərin, etnik qrupların birgə yaşadığını, ölkədə daim dini tolerantlığın hökm sürdüyünü, konstitusion hüquqların, multikultural dəyərlərin dövlət siyasətinin mühüm tərkib hissəsi olduğunu bildirib. Uzunmüddətli birgə fəaliyyətə diqqət çəkən Komitə sədri məhkumların vicdan və dini etiqad azadlıqlarına dair maarifləndirmə işinin genişləndirilməsinin önəmini vurğulayıb. Qeyd edib ki, Dövlət Komitəsi birgə fəaliyyətin təşkili məqsədilə aktual məsələlərin müzakirəsinə dair mütəmadi görüşlərin, tədbirlərin keçirilməsinə hər zaman hazırdır.

Görüşdə gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub, imkanlar qiymətləndirilib. Tərəflər arasında növbəti illər ərzində fəaliyyətin koordinasiya edilməsi məqsədilə birgə Tədbirlər Planı imzalanıb.

Sonda qonaqlar Penitensiar xidmətin Baş idarəsindəki yeni muzeydə Ulu Öndər Heydər Əliyev və Zəfər şəhidlərinin xatirə guşələri ilə tanış olub, xatirə şəkli çəkdiriblər.

## Vatikan Məryəmin heykəli və qan damcıları olan xaçlardan ehtiyatlı olmağı tövsiyə edib

Müqəddəs Taxt-Tac Məryəmin heykəlləri, onun zühuru və qan damcıları olan xaçlar kimi paranormal hadisələrə ehtiyatla yanaşmağı tövsiyə edən yeni təlimat yayıb.

Vatikanın Doktrina Bürosunun yaydığı sənəddə bu kimi hallardan fırıldaqçılıq, maddi mənfəət əldə etmə və şəxsi kult yaratmaq üçün istifadə edildiyi bildirilib. İnsanların çox diqqətli olmasının vacibliyi vurğulanıb.

Gələcəkdə saxta faktlara sitayişin qadağan edilməsi və məhdudlaşdırılması üçün addımları nəzərdə tutan qərarların qəbul olunacağı bildirilib.

Xatırladaq ki, Roma Katolik Kilsəsinin rəhbəri Papa Fransisk daha əvvəl də bu cür hadisələrə şübhə ilə yanaşdığını, Məryəmin zühurunun real olmadığını bildirmişdi.

# VƏTƏNDAŞ QƏBULU





**Yevlax**

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, may ayının 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Yevlax şəhərində vətəndaşları qəbul edib.

Qəbuldan öncə Ümummilli Lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsi ziyarət edilib, xatirəsi ehtiramla yad olunub.

Qəbul zamanı Mingəçevir, Yevlax, Ağdaş, Bərdə şəhər və rayonlarından olan vətəndaşlar İslam dininə aid ibadət yerlərinə din xadiminin təyinatı, dini icmaların kitablarla təmin edilməsi, dini icmanın dövlət qeydiyyatına alınması və digər məsələlərlə bağlı müraciətlər ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciət və təklifləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

**Şamaxı**

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, may ayının 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Şamaxı şəhərində vətəndaşları qəbul edib.

Qəbuldan öncə Ümummilli Lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsi ziyarət edilib, xatirəsi ehtiramla yad olunub.

Qəbul zamanı Şamaxı, Qobustan, Ağsu və İsmayıllı rayonlarından olan vətəndaşlar İslam dininə aid ibadət yerlərinə din xadiminin təyinatı, dini təhsil, maarifləndirmə işinin genişləndirilməsi və digər məsələlərlə bağlı müraciətlər ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciət və təklifləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ
## AİI-DƏ TƏHSİL ALAN TƏLƏBƏNİN EVİNİ ZİYARƏT EDİB

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) "Qonağınız müəllimlərinizdir" layihəsi çərçivəsində tələbələrin ailələrinə ziyarət davam edir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, AİI rektoru Aqil Şirinov, İlahiyyat fakültəsinin dekanı, İslamşünaslıq kafedrasının müəllimləri Dinşünaslıq ixtisasının II kurs tələbəsi Yusif Babayevin ailəsini ziyarət ediblər.

Qeyd edək ki, "Qonağınız müəllimlərinizdir" layihəsinin məqsədi tələbələrin akademik göstəricilərinin yüksəldilməsi, dövrün tələblərinə cavab verən dinşünas və islamşünas kadrların hazırlanması üçün ailə və təhsil qurumunun münasibətlərinin inkişaf etdirilməsi, imkanlarının dəyərləndirilməsidir.



## İsveç Baş nazirinin müavini:
# Aİ müsəlmanların doğma ölkələrinə qaytarılması təşəbbüsü ilə çıxış etməlidir

İsveçin Baş nazirinin müavini, energetika və sənaye naziri, Xristian Demokratlar Partiyasının sədri Ebba Buş "Degens nyheter" qəzetinə müsahibəsində bildirib ki, Avropa İttifaqında (Aİ) yaşayan müsəlmanlar Avropa dəyərlərini qəbul etməlidirlər, əks halda, onların bu ölkələrdə yaşamaq hüquqları tükənir.

Ebba Buşun fikrincə, Aİ müsəlmanların öz ölkələrinə qaytarılması prosesinə rəhbərlik etməlidir.

Baş nazirin müavini deyib: "Avropa İttifaqı sadəcə ticarət birliyi deyil, həm də dəyərlər birliyidir. Əgər biz Avropanı Avropa edən dəyərləri müdafiə edə bilməsək, onu itirəcəyik. Yəhudilər, müsəlmanlar, xristianlar və ateistlər Avropada tolerantlıq, sülh və azadlıq mühitində yaşaya bilməlidirlər". Buş əlavə edib ki, Avropa İttifaqı məscid tikintisinin xaricdən maliyyələşdirilməsini qadağan edə bilməlidir.

Ebba Buşun fikirləri kəskin tənqidlərə səbəb olub. Aİ-nin Mərkəz Partiyasından olan deputatı Abir əs-Səhlani hesab edir ki, belə ritorika İsveçi qütbləşdirir. O əlavə edib: "Bu, ölkənin Baş nazirinin müavininin acınacaqlı bəyanatıdır".

Dini icmalar da bəyanata öz narazılıqlarını bildiriblər. Geten pastorluğunun kilsə keşişi Leyf Nordlander deyib ki, İsveçdəki müsəlmanlar ölkənin qanunlarına hörmət etməlidirlər. Məsələn, onlar şəriət qanunlarını tətbiq edə bilməzlər, lakin müsəlmanların evə qayıtması müxtəlif ölkələr üçün arzuolunmazdır. Çünki onların bir çoxu Avropaya zülmdən qurtulmaq üçün sığınıblar.

Nordlander vurğulayıb: "Bu, iki din arasındakı körpüləri məhv edə bilər. İsveçdə din azadlığı var və o, Konstitusiya ilə qorunur. Heç bir siyasətçi buna qarışmamalıdır, əks halda bu, bizə bumeranq təsiri göstərəcək".

İsveç Müsəlman Cəmiyyətinin katibi Said Mənsur da Ebba Buşun sözlərini tənqid edərək bildirib ki, görünür, Xristian Demokratlar Partiyası seçkilərdə uğur qazana bilməyəcək və ifrat sağçı, millətçi İsveç Demokratlar Partiyasının səslərini cəlb etməyə çalışır.

Hazırda XD partiyası 9 iyun seçkilərindən sonra Aİ Parlamentində mandat almamağa yaxındır.

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ TÜRKİYƏDƏ SƏFƏRDƏ OLUB





Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Ramin Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikasına səfər edib. Səfər qardaş ölkənin müvafiq dövlət orqanları və təşkilatları ilə əməkdaşlığın perspektivlərini müzakirə etmək məqsədi daşıyıb.

Nümayəndə heyəti mayın 28-də Ankarada Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məzarını - Anıtqabiri ziyarət edərək, xatirəsini ehtiramla yad edib, eyni zamanda Anıtqabir, Atatürk və Qurtuluş Savaşı Muzeyi ilə tanış olub.

Daha sonra nümayəndə heyətinin üzvləri Ankarada Heydər Əliyev Parkını ziyarət ediblər. Dövlət Komitəsinin sədri Ramin Məmmədov Ümummilli Liderin parkdakı abidəsi önünə əklil qoyub, xatirəsini ehtiramla yad edib.

***

Həmin gün DQİDK sədri Ramin Məmmədov Türkiyənin Diyanət İşləri İdarəsinin sədri Ali Erbaş ilə görüşüb.



Görüşdə ölkələrimiz arasında qardaşlıq və dostluq əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla vurğulanıb. Bildirilib ki, Azərbaycanla Türkiyə arasında digər istiqamətlərdə olduğu kimi, din sahəsində də əməkdaşlıq yüksək səviyyədə qurulub və hər iki tərəf bu əlaqələrin dərinləşdirilməsində, dini məsələlərin tənzimlənməsi ilə bağlı təcrübə mübadiləsinin genişləndirilməsində maraqlıdır.

Daha sonra Ramin Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyənin Diyanət Akademiyası və Diyanət Vəqfində olub.

Diyanət Akademiyasının sədri Enver Osman Kaan ilə görüşdə Ramin Məmmədov xalqlarımız arasındakı tarix boyu formalaşmış möhkəm təməllərə əsaslanan qardaşlıq münasibətlərinə diqqət çəkib. Qardaş ölkələrin dini-mənəvi sahədə əməkdaşlığının önəminin vurğulandığı görüşdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Türkiyənin Diyanət İşləri İdarəsi arasında əlaqələrin inkişaf etdirilməsinin vacib olduğu bildirilib.

Səfərdə nümayəndə heyətini Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Rəşad Məmmədov müşayiət edib.

***

Mayın 29-da isə DQİDK sədri Ramin Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Böyük Millət Məclisində (TBMM) olub.

Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət", Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir" kəlamlarının iki qardaş ölkə arasında



münasibətlərin təməl prinsipləri olduğunu bildirən Ramin Məmmədov qeyd edib ki, Türkiyə-Azərbaycan əlaqələri bütün dünyada qardaşlığın, birliyin, həmrəyliyin nümunəsi kimi qəbul edilir. O, Azərbaycan və Türkiyə Prezidentlərinin rəhbərliyi altında strateji müttəfiqlik münasibətlərinin yeni bir səviyyəyə yüksəldiyini vurğulayıb.

Dövlət Komitəsinin sədri bütün istiqamətlərdə olduğu kimi, dini sahədə də hökumətlərarası əlaqələrin davamlı şəkildə inkişaf etdirilməsinin hər iki ölkə üçün faydalı olduğunu qeyd edib. Bildirib ki, bəzi coğrafiyalarda islamofobiya meyillərinin güclənməsi, dini məsələlərin tənzimlənməsi sahəsində meydana çıxan çağırışlar qarşılıqlı məsləhətləşmələrin və təcrübə mübadiləsinin genişləndirilməsini zərurətə çevirir.

Azərbaycanla Türkiyə arasında qardaşlıq münasibətlərinin mühüm əhəmiyyətə malik olduğunu, qarşılıqlı səfərlərin əlaqələrin daha da möhkəmlənməsinə xidmət etdiyini qeyd edən Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım bu cür görüşlərin ölkələrimiz arasında daha səmərəli əməkdaşlığın qurulmasına töhfə verəcəyinə inamını ifadə edib.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***

Mayın 30-da nümayəndə heyəti İstanbul müftisi Safi Arpaquş ilə görüşüb. Görüşdə Azərbaycanda müxtəlif dinlərin, ayrı-ayrı mədəniyyətlərin nümayəndələrinin tarix boyu sülh və əmin-amanlıq şəraitində yaşadığı, xalqımızın bu gün də tolerantlıq və multikulturalizm ənənələrini qoruduğu, sivilizasiyalararası dialoqa, İslam həmrəyliyinə mühüm töhfələr verdiyi vurğulanıb. Bildirilib ki, Azərbaycan və Türkiyə prezidentlərinin siyasəti bütün sahələrdə əməkdaşlığın ən yüksək səviyyədə qurulması üçün etibarlı zəmin yaradır.

Görüş zamanı, bölgədə mövcud olan problemlərin həllində, İslam həmrəyliyinin təşviqində Azərbaycan və Türkiyənin din xadimlərinin rolunun artırılmasının önəminə diqqət çəkilib.

Sonra nümayəndə heyəti "Zeynəbiyə məscidi və Mədəniyyət Mərkəzi"ndə olub. Türkiyə Cəfərilərinin lideri Səlahəddin Özgündüz nümayəndə heyətinə Türkiyə Cəfəri icması, eləcə də "Zeynəbiyə məscidi və Mədəniyyət Mərkəzi"nin fəaliyyəti barədə məlumat verib.

Dövlət Komitəsinin sədri Ramin Məmmədov öz növbəsində Azərbaycanın zəngin milli-tarixi ənənəyə əsaslanan və beynəlxalq hüquqi normalarla tənzimlənən dövlət-din münasibətləri, yüksək tolerantlıq mühiti haqqında danışıb.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin milli-mənəvi dəyərlərin qorunmasına, o cümlədən, dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi, cəmiyyətdə etnik-dini müxtəlifliyin qorunması və multikultural dəyərlərin inkişaf etdirilməsinə xüsusi diqqət yetirdiyini vurğulayıb.

Səfər çərçivəsində nümayəndə heyəti "İstanbul 29 Mayıs Üniversitesi"ni də ziyarət edib. Universitetdə yaradılan şəraitlə tanış olduqdan sonra Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutu (AİI) haqqında geniş məlumat verilib. Bildirilib ki, bu təhsil müəssisəsi Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 fevral Sərəncamı ilə yaradılıb. AİI qısa müddət ərzində dünyanın dini təhsil verən bir çox qabaqcıl universiteti ilə əməkdaşlıq protokolları imzalayıb.

"İstanbul 29 Mayıs Üniversitesi"nin rektoru Mustafa Sinanoğlu AİI ilə əməkdaşlıq əlaqələrinin qurulmasında maraqlı olduqlarını diqqətə çatdırıb.

Nümayəndə heyətinin İslam Araşdırmaları Mərkəzinin rəhbəri Murtaza Bədirlə keçirdiyi görüşdə isə din xadimlərinin yetişdirilməsi, İslam dini, eləcə də İslamın tarixi, sivilizasiyalararası münasibətlərdə rolu ilə bağlı elmi araşdırmaların əhəmiyyəti və digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# DÖVLƏT KOMİTƏSİNİN KOLLEKTİVİ ULU ÖNDƏRİN MƏZARINI ZİYARƏT EDİB

Mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollektivi Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib. Müstəqil Azərbaycanın qurucusu və memarı Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla yad edilib, məzarı önünə əklil qoyulub.



# "QÜDRƏTLİ AZƏRBAYCAN HEYDƏR ƏLİYEVİN ŞAH ƏSƏRİDİR"
## mövzusundakı yazı müsabiqəsinin nəticələri açıqlanıb

Mayın 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən Heydər Əliyevin anadan olmasının 101 illiyi münasibətilə dini icmaların üzvləri arasında keçirilmiş "Qüdrətli Azərbaycan Heydər Əliyevin şah əsəridir" mövzusundakı yazı müsabiqəsinin nəticələrinə həsr olunan tədbir keçirilib.



Tədbiri giriş sözü ilə açan Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Ulu Öndərin Azərbaycanda dövlət-din münasibətlərinin inkişafında, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasındakı müstəsna xidmətlərinə diqqət çəkib.

DQİDK-nın tabeliyindəki Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov və Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov da çıxışlarında Ümummilli Liderin Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın – azərbaycançılığın təşəkkülü və inkişafındakı rolunu, habelə dini konfessiyaların ölkəmizdəki fəaliyyətinə göstərdiyi dəstəyi vurğulayıblar.

Sonda yazı müsabiqəsinin nəticələri elan edilib. Şəki şəhəri Mərkəzi "Cümə" məscidinin imamı Müşfiq Xəlilov I, Biləcəri qəsəbəsi "Birinci Məhəllə" məscidinin imam müavini Mehdi Sofiyev II, Ucar rayonu Çiyni kənd "Hacı Ağamirzə" məscidi dini icmasının sədri Zaur Eyvazov III yerə layiq görülüblər. Sabirabad rayonu Kovlar kənd məscidinin imam müavini Rahil Əlicanov, Abşeron rayonu Xırdalan şəhər məscidinin imamı Elnur Əliyev, Ağcabədi rayonu Salmanbəyli kənd "Heydər" məscidi dini icmasının sədri Heydər Məmmədov isə həvəsləndirici mükafat qazanıblar.

Şəki şəhəri Mərkəzi "Cümə" məscidinin imamı Müşfiq Xəlilov milli-mənəvi irsə dövlət qayğısını qeyd edərək Ümummilli Liderimizin əsasını qoyduğu modelin bu gün ölkəmizdə sabitliyin, tolerantlığın, dinamik inkişafın başlıca qarantına çevrildiyini deyib.

# SUQOVUŞAN VƏ TALIŞDAKI ALBAN MƏBƏDLƏRİNİ ZİYARƏT, NİC QƏSƏBƏSİNDƏ PASXA BAYRAMI

Ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların nümayəndələri Ermənistanın işğalından azad edilən Suqovuşan qəsəbəsində və Talış kəndində səfərdə olublar. Səfər Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə reallaşıb.

Dini konfessiyaların nümayəndələri Pasxa bayramı münasibətilə Suqovuşan qəsəbəsindəki və Talış kəndindəki Alban məbədlərini ziyarət ediblər. Dini ayinlər icra olunub, bayram duaları oxunub.



Talış kəndindəki məbədin həyatında bayram süfrəsi açılıb. Süfrəyə kuliç və digər bayram nemətləri düzülüb, mahnılar ifa olunub. Tolerantlığın bariz nümunəsi olaraq xristianlarla yanaşı, müsəlmanlar da bayram tədbirində iştirak ediblər.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov AZƏRTAC-a müsahibəsində deyib: "Bu gün dini konfessiyaların, icmaların üzvlərinin iştirakı ilə Pasxa bayramı ərəfəsində birlikdə olmağımız bir daha Azərbaycandakı dini həmrəyliyin, dini harmoniyanın bariz nümunəsidir. Bu, Azərbaycanda həyat tərzidir. Azərbaycanda fəaliyyətdə olan bütün dini konfessiyaların nümayəndələri bir ailə kimi yaşayır. Bu, bizim milli sərvətimizdir. Bizim hamımızın qarşısında duran başlıca vəzifə bu milli sərvəti qorumaq, daha da gücləndirmək və gənc nəslə ötürməkdir. Azərbaycan bu həmrəyliyi, birlik nümunəsi ilə dünyaya sülh modeli təqdim edir".

***

Həmçinin respublikamızda fəaliyyət göstərən dini konfessiyaların nümayəndələri DQİDK və Alban-udi xristian dini icmasının birgə təşkilatçılığı ilə Pasxa bayramı münasibətilə mayın 5-də Qəbələ rayonunun Nic qəsəbəsinə səfər ediblər.

Cotari kilsəsində dini konfessiyaların nümayəndələri xalqımızın birliyi üçün dualar ediblər, şəhidlərin xatirəsini rəhmətlə anıblar.

Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov çıxışı zamanı dini konfessiya nümayəndələrinin iştirakı ilə Pasxa bayramının Nic qəsəbəsində qeyd edilməsinin əlamətdar hadisə olduğunu vurğulayıb, bunu Azərbaycandakı dini həmrəyliyin bariz nümunəsi adlandırıb. Komitə rəsmisi bildirib ki, Prezident İlham Əliyev VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda respublikamızda mövcud olan tolerantlıq, birgəyaşayış ənənələri mövzusuna da toxunaraq bu dəyərləri inkişaf etdirmək üçün qarşımıza yeni hədəflər qoyub.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev Pasxa bayramı münasibətilə təbriklərini çatdırıb, bu səfərin ölkəmizdəki tolerant və multikultural dəyərlərin təbliği baxımından da əhəmiyyət daşıdığını bildirib.

Alban-udi xristian dini icmasının sədri Robert Mobili və digərləri çıxışlarında vurğulayıblar ki, dövlət başçısının müvafiq sərəncamları ilə dini icmaların fəaliyyətini dəstəkləmək məqsədilə maliyyə yardımının ayrılması ölkə rəhbərliyinin bütün dinlərin nümayəndələrinə diqqət və qayğısının bariz nümunəsidir.

Qeyd edək ki, bayram tədbirində tolerantlığın bariz nümunəsi olaraq xristianlarla yanaşı, müsəlmanlar da iştirak ediblər. Tədbir çərçivəsində kilsənin həyatında birgəyaşayış mövzusuna həsr olunmuş sərgi nümayiş etdirilib.

# DÖVLƏT KOMİTƏSİNİN ŞÖBƏ MÜDİRİ BEYNƏLXALQ TƏDBİRDƏ İŞTİRAK EDİB

Doha Beynəlxalq Dinlərarası Dialoq Mərkəzi tərəfindən 7-8 may tarixlərində “Dini baxımdan dəyişən dünyada ailə quruluşu” mövzusunda 15-ci Beynəlxalq Dinlərarası Dialoq üzrə Doha Konfransı keçirilib.

Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdiri Əli Həziyev “Ailə inteqrasiyasının möhkəmləndirilməsində dini və mənəvi dəyərlər” mövzusunda çıxış edib.

Çıxışda ailə institutunun qorunması istiqamətində modern dünyada qarşıda duran çağırışlar və həll yolları kimi mənəvi dəyərlərin əhəmiyyəti vurğulanıb. Bildirilib ki, Azərbaycanda milli-mənəvi dəyərlərin təbliği və gənc nəslə aşılanmasına, ailə quruluşunun möhkəmləndirilməsi, gənclərin həm fiziki, həm də mənəvi cəhətdən güclü nəsil kimi formalaşmasına böyük diqqət yetirilir. Eyni zamanda, Prezident İlham Əliyevin rəhbərliyi ilə ailə institutunun qorunması istiqamətində aparılan dövlət siyasətinə toxunulub.

Həmçinin ölkədə fəaliyyət göstərən müxtəlif dini icmalar tərəfindən də ailə dəyərlərinin vacibliyi istiqamətində həyata keçirilən layihələr barədə məlumat verilib.




# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ TƏRƏFİNDƏN “YAŞIL GƏLƏCƏK NAMİNƏ” ADLI YAŞILLAŞDIRMA AKSİYASINA START VERİLİB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Prezident İlham Əliyev tərəfindən ölkəmizdə elan olunan “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində “Yaşıl gələcək naminə” adlı yaşıllaşdırma aksiyasına başlayıb. Aksiyaya Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə mayın 10-da şimal-qərb bölgəsindən start verilib.

Zaqatala, Balakən və Qax rayonlarında yerləşən məscidlərin, kilsələrin həyətlərində ağaclar əkilib, eyni zamanda təmizlik işləri aparılıb. Keçirilən aksiyalarda DQİDK-nın bölgə şöbəsinin müdiri İlqar Vəliyev, şöbənin əməkdaşları, dini konfessiyaların nümayəndələri, regionun din xadimləri, eləcə də dini icma sədrləri iştirak ediblər.




***

Aksiya çərçivəsində may ayının 17-də isə Şirvan şəhəri və Hacıqabul rayonunda yerləşən məscidlərin həyətlərində ağaclar əkilib, eyni zamanda abadlıq işləri aparılıb. Keçirilən aksiyalarda DQİDK-nın bölgə şöbəsinin müdiri Sənan Xəlilov, şöbənin əməkdaşları, regionun din xadimləri, eləcə də dini icma sədrləri iştirak ediblər.

***

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi may ayı ərzində “Yaşıl gələcək naminə” aksiyasını Şamaxı, Qobustan, Ağsu və İsmayıllı rayonlarında yerləşən dini ibadət yerlərində davam etdirib.

May ayının 23-də Şamaxıdakı Pirsaat Baba ziyarətgah-məscid kompleksinin ətrafında keçirilən ağacəkmə aksiyasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, din xadimləri və dini icma sədrləri iştirak ediblər.

***

Mayın 31-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Göyçay bölgəsi üzrə şöbəsi tərəfindən Göyçay, Kürdəmir, Ucar və Zərdab rayonlarında keçirilən aksiyada Komitə əməkdaşları, din xadimləri, dini icmaların nümayəndələri iştirak ediblər.

Aksiya çərçivəsində adıçəkilən rayonlardakı dini ibadət evlərinin ətrafında, o cümlədən ictimai yerlərdə abadlıq və yaşıllaşdırma işləri aparılıb, ağac və gül kolları əkilib.

Qeyd edək ki, aksiya çərçivəsində cari ilin may-oktyabr aylarında bölgələrdə və Bakıda dini icma üzvləri, din xadimləri, habelə yerli icra hakimiyyəti orqanları və gənclərin iştirakı ilə silsilə abadlıq, yaşıllaşdırma tədbirləri keçiriləcək. Məqsəd İslam və qeyri-islam dini icma üzvlərini, eləcə də cəmiyyətin müxtəlif təbəqələrindən ibarət könüllüləri bir araya gətirərək dini ibadət evlərinin ətrafında, həmçinin yaxınlıqdakı ictimai yerlərdə yaşıllaşdırma işləri aparmaq, yaşıllıq zonalarının bərpasına və genişləndirilməsinə təşviq etmək, ictimaiyyətin diqqətini ətraf mühitin sağlamlaşdırılmasına, yaşıllıqların artırılmasına yönəltmək və iqlim dəyişikliyinin yarada biləcəyi problemlərlə mübarizəyə töhfə verməkdir.

Həmçinin layihə bu il Azərbaycanda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbir çərçivəsində cəmiyyətdə ekoloji maarifləndirmə səviyyəsinin yüksəldilməsinə, ətraf mühitin və ictimai məkanların abadlaşdırılmasına töhfə verməklə yanaşı, dini icmalar arasında qlobal və ümummilli məsələlərdə həmrəylik və əməkdaşlığı daha da artırmağa xidmət edəcək.

# Türkiyədə 1000 illik qayalıq kilsələrə ev sahibliyi edən Erdemli vadisi ziyarətə açılıb



Erciyes dağının ətəyindəki Erdemli vadisinin uzunluğu təqribən 10 kilometrdir. Bura sıldırım qayaları, yamyaşıl bitki örtüyü və tarixi kilsələri ilə diqqət çəkir. “AnatolianArcheology”-nin verdiyi xəbərə görə, vadidəki kilsələr X-XIII əsrlər arasında tikilib və Bizans incəsənətinin mühüm nümunələrini təşkil edir.

Ən görkəmli tikililər arasında Saray Monastır kilsəsi, Müqəddəs Evstafiya kilsəsi, Müqəddəs Nikolay kilsəsi və sovməə, Müqəddəs Mixail kilsəsi, On iki həvari kilsəsi, Qırx Şəhid Kilsəsi, Tək nefli kilsə və Ayı kilsəsinin adını çəkmək olar. Erdemli vadisi əsrlər boyu xristianlar üçün mühüm dini mərkəz olmuşdur. Vadidəki kilsələr və monastırlar bir vaxtlar canlı monastır həyatının mərkəzi idi.

Vadidəki tikililər dövrün ən qabaqcıl texnologiyasından istifadə edilməklə X-XIII əsrlər arasında tikilib. Binaların divarları İncildən səhnələr, bəzi nəbati və həndəsi naxışlar, həmçinin müqəddəslərin – prelatların, müqəddəslərin və həvarilərin fiqurları ilə bəzədilib.

Yeşilhisar İlçe valisi Ahmet Ali Altıntaşın sözlərinə görə, Erdemli vadisi Bizans dövründə və əvvəlki illərdə kənd təsərrüfatının intensiv şəkildə tətbiq edildiyi geniş düzənliklərin ortasında yerləşir. X əsrdən etibarən burada çox varlı insanların yaşadığını söyləyən Altıntaş bunun bölgədəki tikililərdə istifadə edilən texnologiyalardan və istifadə olunan materialların keyfiyyətindən aydın olduğunu bildirib. Altıntaş qeyd edib ki, Erdemli vadisindəki həyatın əsasən bölgədəki kənd təsərrüfatı fəaliyyətləri və əldə edilən məhsulların bazara çıxarılması ilə müəyyən edildiyini göstərən bir çox sənəd var.

# QISA-QISA

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan daha sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini 2024-cü ilin may ayı ərzində də davam etdirmişdir.

Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**1 may** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dini radikalizm, xurafat və ekstremizmin qarşısının alınmasında dövlət orqanlarının və vətəndaş cəmiyyətinin rolu" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonunda "Radikal dini cərəyanlara qarşı birgə mübarizə" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər 34 saylı tam orta məktəbində "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Balakən rayonu Yeni Şərif kənd tam orta məktəbində "Uşaqların humanizm ruhunda tərbiyəsinin mənəvi aspektləri" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Yardımlı rayonunda "Dini radikalizmlə mübarizə" mövzusunda;

**2 may** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Qax RİH-in birgə təşkilatçılığı ilə Qax rayonunda "Radikal dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonu Alpout kənd 1 saylı tam orta məktəbində "Gənclər və milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Bakı şəhəri Nərimanov RİH-in birgə təşkilatçılığı ilə Bakı Avrasiya Universitetində "Milli birliyimizin möhkəmlənməsində mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Salyan RİH-in birgə təşkilatçılığı ilə Salyan şəhəri Ə.Kürçaylı adına 7 saylı texniki fənlər təmayüllü məktəb liseydə "Uşaqların humanizm ruhunda tərbiyəsinin mənəvi aspektləri" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Biləsuvar rayonun Aşağı Cürəli kənd tam orta məktəbində "Dini radikalizm və zərərli vərdişlərə qarşı mübarizə" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonunda "Uşaqların tolerantlıq ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Astara rayonu Maşxan kənd tam orta məktəbində "Radikal dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda;

**3 may** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şabran şəhər Roman Yusifov adına 2 nömrəli texniki təmayüllü liseydə "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Sabirabad RİH-in birgə təşkilatçılığı ilə Sabirabad rayonunda "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Abşeron rayonunda yerləşən "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "Milli birliyimizin möhkəmlənməsində mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lerik RİH, Rayon Polis Şöbəsi və Lerik rayonu üzrə Təhsil sektorunun birgə təşkilatçılığı ilə "Dini radikalizm, erkən nikah və narkomaniyanın fəsadları" mövzusunda;

**6 may** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Hacıqabul rayonunda "Qızların təhsil almasının önəmi: dini qaynaqlar nə deyir?" mövzusunda;

**7 may** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux rayon Qarabağlar kənd tam orta məktəbində "Dini radikalizmə və zərərli vərdişlərə qarşı mübarizə üsulları" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonunda yerləşən Ağdam rayonu 27 nömrəli tam orta məktəbində "Gənclərdə vətənpərvərlik tərbiyəsinin yüksədilməsi" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Füzuli RİH-in birgə təşkilatçılığı ilə Füzuli rayonunda "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə "İslamda insan həyatının dəyəri" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağsu rayonunun Pirhəsənli kənd tam orta məktəbində "Dini radikalizm və zərərli vərdişlərin fəsadları" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Tərtər RİH-in birgə təşkilatçılığı ilə Tərtər rayonunda "Dini radikalizm, narkomaniya və erkən nikah" mövzusunda; Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə "Ümummilli Lider Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Yevlax şəhərində; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba RİH-in birgə təşkilatçılığı ilə Qubada; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zərdab və Ucarda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və QMİ-nin İsmayıllı rayonu üzrə səlahiyyətli nümayəndəliyinin birgə təşkilatçılığı ilə İsmayıllıda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və YAP Oğuz Rayon Təşkilatının birə təşkilatçılığı ilə Oğuzda;

**8 may** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonunun Bərgüşad kənd 1 nömrəli tam orta məktəbində "Dini radikalizmin mahiyyəti" mövzusunda; Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev dəyərlərimizin xilaskarı" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qəbələ Şəhər Dövlət Peşə Təhsil Mərkəzində "Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi, Qafqaz Müsəlmanları İdarəsi (QMİ) və Sumqayıt Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə Sumqayıtda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Sabirabad RİH və QMİ-nin Sabirabad rayonu üzrə səlahiyyətli nümayəndəliyinin birgə təşkilatçılığı ilə Sabirabadda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və İnsan Hüquqları üzrə Müvəkkilin Şimal regional mərkəzinin birgə təşkilatçılığı ilə Qubada; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Qobustan RİH-in birgə təşkilatçılığı ilə Qobustanda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, YAP Oğuz Rayon Təşkilatı və Rayon Gənclər və İdman sektorunun birgə təşkilatçılığı ilə Oğuz rayonu Heydər Əliyev Mərkəzində; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göyçay rayonunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala RİH-in birgə təşkilatçılığı ilə Zaqatalada; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lənkəran rayonunda "Ümummilli Lider Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda;

**10 may** – Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə "Ümummilli Lider Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Tovuz rayonunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və İmişli RİH-in birgə təşkilatçılığı ilə İmişlidə; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Bakı şəhəri Xətai RİH-in birgə təşkilatçılığı ilə Bakı şəhəri, Xətai rayonu 264 nömrəli məktəb-liseydə; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Şirvan ŞİH-in birgə təşkilatçılığı ilə Şirvan Gənclər evində;

**11 may** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Hacıqabul RİH-in birgə təşkilatçılığı ilə Hacıqabul rayon Heydər Əliyev mərkəzində "Ümummilli Lider Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda;

**14 may** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zaqatala şəhəri İsmət Qayıbov adına Qazangül tam orta məktəbində "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonunda "Milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Daşkəsən rayonunda yerləşən "N" saylı hərbi hissədə "Vətənpərvərlik ruhunun yüksəldilməsində mənəvi və dini dəyərlərin rolu" mövzusunda;

**15 may** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qusar rayonunun Balaqusar kənd tam orta məktəbində "Gənclərin dini radikalizmin təsirlərindən qorunması" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Siyəzən rayonunda "Milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Balakən rayonu Qazma kənd 1 saylı tam orta məktəbində "Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayonunun Xanqərvənd kənd tam orta məktəbində "Yad təsirlərə qarşı mübarizədə milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Hacıqabul rayonunda yerləşən 9 saylı tam orta məktəbində "Mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağstafa rayonunda yerləşən "N" saylı hərbi hissədə "Dini ekstremizmlə mübarizə" mövzusunda;

**16 may** – DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin təşkilatçılığı ilə Bakı şəhəri Nizami rayonu 312 saylı tam orta məktəbində "Qloballaşma dövründə gənclər arasında milli ailə dəyərlərinin təbliği, onun qorunması və möhkəmləndirilməsi" mövzusunda və Yasamal rayonu 60 saylı tam orta məktəbində "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Xızı rayonu Şorabad qəsəbə tam orta məktəbində "Erkən nikah: hüquqi və mənəvi müstəvidə" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar şəhər 6 nömrəli tam orta məktəbində "Məişət zorakılığının qarşısının alınması" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Hacıqabul şəhər 1 saylı orta məktəbində "Dövlətimizin din siyasəti" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayonu İlisu kəndi Nizami Gəncəvi adına tam orta məktəbində "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərin yeri" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Biləsuvar şəhər 4 saylı tam orta məktəbində "Mənəvi dəyərlərimiz və Azərbaycançılıq ideologiyası" mövzusunda və Salyan şəhər Aşıq Panah adına 1 saylı humanitar fənlər təmayüllü məktəb-liseydə "Dövlət-din münasibətləri" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qazax rayon Çaylı kənd 2 nömrəli tam orta məktəbində "Dini radikalizmin təhlükələri və fəsadları" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Tərtər rayonu Seydimli kənd tam orta məktəbində "Dini radikalizm, erkən nikah və zərərli

davamı səh. 14

# QISA-QISA

əvvəli səh. 13

vərdişlər" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi, Sabunçu RİH və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Neft-Energetika Kollecinin birgə təşkilatçılığı ilə "Dini fanatizmin, radikalizmin və ekstremizmin mahiyyəti və fəsadları" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qobustan rayonunda "Dini radikalizmlə mübarizə" mövzusunda;

**17 may** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göyçay rayonu Bığır kənd tam orta məktəbində "Gənclərimizi dini cəhalət, xurafat və radikalizmin təsirlərindən qoruyaq" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonu Boyat kənd tam orta məktəbində "Dini radikalizm, erkən nikah və onların fəsadları" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı rayonunda "Dini radikalizm və narkomaniyaya qarşı mübarizə" mövzusunda;

**21 may** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Azərbaycan Texnologiya Universitetində "Yeniyetmə və gəncləri dini radikalizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Bakı şəhəri Suraxanı RİH-in birgə təşkilatçılığı ilə "Heydər Əliyev siyasəti: milli-mənəvi dəyərlərimizə qayıdış" mövzusunda;

**22 may** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qəbələ rayonunun Vəndam qəsəbəsi 2 saylı tam orta məktəbində "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonunda "Gənclərin dini radikalizm və zərərli vərdişlərdən qorunması" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Tovuz şəhər Elxan Məmmədov adına tam orta məktəbində "Uşaqların mənəvi dəyərlərə hörmət ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qazax rayon Aşağı Əskipara kənd tam orta məktəbində "Dini radikalizm, zərərli vərdişlər, erkən nikah və onların fəsadları" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər Mikayıl Müşfiq adına 14 saylı tam orta məktəbində "Qızların təhsil almasının önəmi: dini qaynaqlar nə deyir?" mövzusunda;

**23 may** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Mingəçevir Turizm Kollecində "Uşaqların humanizm ruhunda tərbiyəsinin mənəvi aspektləri" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Göygöl RİH-in birgə təşkilatçılığı ilə Göygöl rayon R.Rzayev adına Qızılca kənd tam orta məktəbində "Dini radikalizm və onunla mübarizə üsulları" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Beyləqan rayonunda yerləşən hərbi hissələrdə "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və fəsadları" və "İslamda şəhidlik anlayışı" mövzularında; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Tərtər RİH-in birgə təşkilatçılığı ilə rayonun R.Almuradov adına Ələsgərli kənd tam orta məktəbində "Dini radikalizm və ekstremizmlə mübarizə" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonunun Qarabörk kənd tam orta məktəbində "Milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lerik rayonunun Pirəsora kənd tam orta məktəbində "Milli-mənəvi dəyərlərimiz" mövzusunda;

**24 may** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qusar rayonunda "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və fəsadları" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran-Astara Regional Təhsil İdarəsinin Astara rayonu üzrə təhsil sektorunun birgə təşkilatçılığı ilə Astara şəhəri 2 saylı tam orta məktəbində "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" və Astara rayonu Sərək kənd tam orta məktəbində "Radikal dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzularında;

**27 may** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə 28 May - Müstəqillik Günü münasibətilə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Lənkəran Regional Elmi Mərkəzində;

28 may – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və İsmayıllı RİH-in təşkilatçılığı ilə 28 May - Müstəqillik Günü münasibətilə İsmayıllı rayonunda;

**29 may** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sumqayıt şəhəri 27 saylı tam orta məktəbində "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə 28 May - Müstəqillik Günü münasibətilə Hacıqabul şəhər 5 saylı tam orta məktəbində; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər 31 nömrəli tam orta məktəbində "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şirvan şəhəri 10 nömrəli tam orta məktəbində "Radikal dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Balakən rayonu Hənifə kənd tam orta məktəbində "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və fəsadları" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Salyan rayonundakı Peşə liseyində "Ailə dəyərlərinin əhəmiyyəti, qorunması və möhkəmləndirilməsi" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağsu rayonu M.İsmiyev adına Ərəbuşağı kənd tam orta məktəbində "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları" mövzusunda;

**30 may** - DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Abşeron rayonunun Masazır qəsəbəsindəki 5 saylı tam orta məktəbdə "Gəncləri və yeniyetmələri radikalizm və ekstremizmdən qoruyaq" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhərində yerləşən N saylı hərbi hissədə "Gənclərin milli-mənəvi dəyərlərimiz və vətənpərvərlik ruhunda tərbiyəsi" mövzusunda;

**31 may** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Füzuli rayonu Horadiz şəhəri "Əhli-Beyt" məscidində "Dini fanatizm, radikalizm və ekstremizmin təhlükələri" mövzusunda baş tutub.

Tədbirlərdə DQİDK-nın bölgə şöbələrinin əməkdaşları ilə yanaşı, rayon icra hakimiyyətləri və aidiyyəti qurumların nümayəndələri, rayon təhsil, gənclər və idman sektorlarının, rayon polis şöbələrinin və digər regional qurumların əməkdaşları, rayonların dini icma sədrləri və din xadimləri, QMİ-nin səlahiyyətli nümayəndələri, o cümlədən hərbçilər, şəhid ailələrinin üzvləri, müharibə veteranları, qazilər, müəllimlər və şagirdlər, ictimaiyyət nümayəndələri və gənclər iştirak ediblər.

Çıxışlarda mövzuların aktuallığından bəhs olunub və DQİDK-nın müvafiq qurumlarla birgə həyata keçirdiyi maarifləndirmə işinin önəmi diqqətə çatdırılıb. Natiqlər yeniyetmə və gənclər arasında milli-mənəvi dəyərlərimizin təbliğinin vacibliyi məsələsinə toxunublar, milli kimliyimizin qorunmasında mənəvi dəyərlərin mühüm rol oynadığını vurğulayıblar. Həmçinin vurğulanıb ki, müasir dövrdə bilikli, savadlı olmaq, dünyaya Vətənimizin zəngin mədəniyyətini və tariximizi tanıtmaq hər bir vətəndaşın mənəvi borcudur.

Qeyd edilib ki, tarixin bütün dövrlərində millətin və xalqın ictimai şüur səviyyəsini əks etdirən adət və ənənələr həm də mədəni tərəqqinin, əxlaqi xüsusiyyətlərin göstəriciləridir. İştirakçılar əsrlər boyu ölkəmizdə bütün dinlərin, etnik qrupların nümayəndələrinin əmin-amanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşadığını diqqətə çatdırıblar. Bildiriblər ki, Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır.

Çıxışlar zamanı milli dəyərlərimizin qorunması və inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğu qeyd edilib. Milli dəyərlərimizə, soykökümüzə qayıdışın, milli hisslərimizin oyanışının xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman bu sahəni diqqət mərkəzində saxlayan Ümummilli Liderimizin Azərbaycana rəhbərliyi dövründə xalqımızın milli oyanışının əsası qoyulub. Qloballaşan dünyada öz dəsti xətti ilə seçilən Azərbaycan xalqının soy köklərinə bağlı qalması və bu siyasətin həyata keçirilməsində cənab Prezident İlham Əliyevin müstəsna xidmətlərinin olması vurğulanıb.

Gənclərə diqqət və qayğı göstərilməsinin, sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində misilsiz işlər görülməsinin dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu diqqətə çatdıran natiqlər dini radikalizm və ekstremizmdən, onların törətdiyi sosial bəlalardan bəhs ediblər. Habelə dini radikalizm və ekstremizmə qarşı mübarizə sahəsində aparılan tədbirləri, radikalizmin mahiyyəti, yaranma şəraiti, gerçəkləşdirilmə üsulları və onlardan qorunma yolları barədə geniş məlumat veriblər. Çıxışlar zamanı narkomaniya, onun törətdiyi fəsadlar və bununla bağlı ölkəmizdə aparılan mübarizə tədbirlərindən də danışılıb. Habelə bu gün bütün dünyada olduğu kimi, ölkəmizdə də erkən nikahın doğurduğu fəsadlardan, cəmiyyətə vurduğu ziyandan bəhs olunub. Vurğulanıb ki, son illər Azərbaycanda ziyalı, savadlı qadınların özlərini inkişaf etdirmələri üçün münasib şərait yaradılıb. Qızların cinsi ayrı-seçkilik edilmədən təhsil almaları üçün lazım olan bütün addımlar atılıb. Lakin bu görülən işlərə baxmayaraq, kütləvi olmasa da, bəzi bölgələrdə erkən nikahlar və bunun kimi müxtəlif səbəblərdən qızların təhsildən yayınması halları baş verir. Erkən nikahla bağlı problemlərin aradan qaldırılması baxımından maarifləndirici tədbirlərin təşkili, yeniyetmə və gənclərlə müntəzəm olaraq görüşlərin keçirilməsi böyük əhəmiyyət daşıyır.

Müzakirələrlə davam edən tədbirlərdə mövzu ilə bağlı iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Bundan başqa, respublikamızın regionlarında 28 may - Müstəqillik Günü ilə əlaqədar silsilə tədbirlər keçirilib.

Göyçay, Ucar, Kürdəmir, Zərdab, Goranboy, Oğuz, Siyəzən, Balakən, Saatlı, İmişli, Tovuz, Şabran, Bərdə və Qax rayonlarında baş tutan tədbirlərdə DQİDK-nın bölgə şöbələrinin müdirləri, şöbələrin əməkdaşları, din xadimləri, dini icma sədrləri, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Çıxışlar zamanı qeyd edilib ki, 28 May – Müstəqillik Günü hər bir Azərbaycan vətəndaşının qürur mənbəyi olan bir gündür. 1918-ci il mayın 28-də mürəkkəb siyasi-hərbi şəraitdə yaşayan xalqımız Şərqin ilk demokratik, hüquqi, dünyəvi və parlamentli respublikasını qurub. Eyni zamanda ötən əsrin sonunda Ümummilli Lider Heydər Əliyevin böyük çətinliklər bahasına müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi istiqamətində apardığı müdrik siyasətdən geniş söhbət açılıb.

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR MƏLUMATLARI

**“Masallı rayonu Köhnə Alvadı kənd məscidi” dini icması**

Qeydiyyat tarixi: 10 fevral 2010-cu il
Qeydiyyat nömrəsi: 100110A1 – 213

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Vəliyev Zeynal Qulamrizə oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Yunusova Aygül Mehti qızı dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 01 may 2024-cü il

**“Zaqatala rayonu Çobankol kəndi “Cümə” məscidi” dini icması**

Qeydiyyat tarixi: 10 fevral 2010-cu il
Qeydiyyat nömrəsi: 100110A1 – 213

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Nurullayev Məhəmməd Misir oğlu, İsmayılov Nəriman Həkəz oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Həsənov Tural Yaqub oğlu, Əhmədov Şükürən Ələkbər oğlu, Qəribov Tezcan Əlican oğlu, Məmmədov Mustafa Mahmudağa oğlu, İdrisov Rza Camal oğlu, Qəribov İlham Əziz oğlu, İsmayılov Ələddin Şaban oğlu, Çələbiyev Asiman Həmid oğlu, İsmayılov Ruslan Mikailoviç, Məmmədov Şümşəd Vahid oğlu, Mustafayev Bəhram Hacı oğlu, İsmayılov Məhəmməd İzahar oğlu, İsmayılov Cavad Ələddin oğlu, İdrisov Cavidan Rza oğlu, İdrisov Qiyas Camal oğlu, Həsənov Famil Güləhməd oğlu, Gəncəliyev Surət Niyazi oğlu, Çələbiyev Qurban Mahmud oğlu, Aşurov Mahir Məhərrəm oğlu, Qardaşov İmran Qardaş oğlu, Məmmədov Ramail Rafael oğlu, Çələbiyev Həmid Yusif oğlu, Atayev Həzrət Laçın oğlu, Qurbanov Qasım Eldar oğlu, Hasilov Muradhasil Eldar oğlu, Atayev Daşqın Hacıağa oğlu, Nəbiyev Hikmət Camil oğlu, Çələbiyev İlfan Mahmud oğlu, Kərimov Fətəli Abdulla oğlu, Gəncəliyev Beyrək Niyazi oğlu, Əhmədov Cəfər Rəsul oğlu, Kərimov Mayil Beydullah oğlu, Məmmədov Telman Rahid oğlu, Nurullayev Novruz Xalid oğlu, İsmayılov Əhməd Mahmud oğlu, Ömərov Namiq Hicran oğlu, Abdilov Yusif İsa oğlu, Ömərov Vəfadar Cahangir oğlu, Nurullayev Nurməhəmməd Dalib oğlu, Sultanov Əziz Sultan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Nurullayev Məhəmməd Misir oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Həsənov Tural Yaqub oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 01 may 2024-cü il

**“Masallı rayonu Təklə kəndi “İmam Hüseyn” məscidi” dini icması**

Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat nömrəsi: 100119C – 904

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hüseynova Aygün Abdulhüseyn qızı, Dünyamaliyev Zakir Yusif oğlu, Yusifli Xoşavaz Novruz qızı, Əkbərov Ələkbər Qulamhüseyn oğlu, Beşirov Dənizxan Mustafa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

İbrahimov Valeh Camal oğlu, Abbasov Əsgər Nazim oğlu, Cəfərov Fərhad Əlihüseyn oğlu, Cəfərov Cəfər Fərhad oğlu, İbrahimova Gülsənəm Təvəkgül qızı, Hüseynova Elnurə Habil qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Nuriyev Elman Muxdar oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Quliyev Mübariz İsmayıl oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 24 may 2024-cü il

**“Masallı rayonu Kubin kənd məscidi” dini icması**

Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat nömrəsi: 100119C – 904

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Xamiyev Miri Oruc oğlu, Ağayev Əli Mirzağa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Babayev Ramil Aydın oğlu, Ağayev İsaq Əziz oğlu, Xamiyev Rza Xanməd oğlu, Xamiyev İsmayıl Xanməd oğlu, Xamiyeva Təzəgül Vəliməmməd qızı, Babayev İdris Hacıhəsən oğlu, Qurbanova Gülü Əbdül qızı, Nəzərov Təyyub Ədalət oğlu, Babayeva Rəna Məhərrəməli qızı, Xamiyeva Zəhra Şıxı qızı, Nəzərov Mürsəl Güləbala oğlu, Məmmədəliyeva Yasəmən Mirzəməmməd qızı, Babayeva Qənimət Sarıbala qızı, Ağayeva Hökümə Nəriman qızı, Xamiyeva Yazgül Muhəmməd qızı, Nəzərova Ədilə Tərlan qızı, Xamiyeva Şahnaz Oğlan qızı, Xamiyeva Həbibə Yəhya qızı, Babayev Telman Məhərrəm oğlu, Nəzərov Həsən Qələm oğlu, Nəzərov Ağakərim Cahil oğlu, Nəzərov Cahil İzzət oğlu, Xamiyeva, Vaciyyə Xanməd qızı, Xamiyev Çingiz Sahib oğlu, Xamiyeva Gülxar Miri qızı, Nəzərov Nəsimi Ədalət oğlu, Babayev Seyran Musarza oğlu, Nəzərova Cəmilə Adil qızı, Vəliyev Elman Məzahir oğlu, Xamiyeva Ağabaci Soltan qızı, Rəhimova Nərgiz Oruc qızı, Rəhimov Əliniyaz Qiyas oğlu, Babayeva Nəzmiyyə Musarza qızı, Nəzərova Ayə Şabala qızı, Rəhimov Arzu Əliniyaz oğlu, Xamiyeva Südabə Əliniyaz qızı, Xamiyev Şirzad Oğlan oğlu, Əkbərova Şamama Qiyas qızı, Nəzərov Faiq Əjdər oğlu, Əbilova Xuraman Zülfü qızı, Nəzərov Ədalət Qələm oğlu, Nəzərova Aysel Həsən qızı, Vəliyev Elmar Məzahir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 4 may 2024-cü il

**“Masallı rayonu Musaküçə kənd məscidi” dini icması**

Qeydiyyat tarixi: 17 iyun 2010-cu il
Qeydiyyat -si: 100110A3 – 409

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Babayev Söhrab Əjdər oğlu, Abbaszadə Tərlan Soltanağa oğlu, Şahverdiyev Salman Vəli oğlu, Kazımzadə Mirkazım Mirsaqət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Qurbanov Nuru Şahin oğlu, Abıyev Vurğun Razzaq oğlu, Abiyev Azər İsgəndər oğlu, Gülverdiyev Xalid Əlamət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 24 may 2024-cü il

## İstanbulda Qariyə məscidinin yenidən açılışı olub



Türkiyənin İstanbul şəhərində 70 ildən çox muzey kimi fəaliyyət göstərən Qariyə məscidinin yenidən açılışı olub.

Qədim məbədin açılışını Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan paytaxt Ankaradan videokonfrans vasitəsilə həyata keçirib.

Daha əvvəl kilsə olan bu bina II Bəyazid dövründə məscidə çevrilib. Belə ki, VI əsrə aid edilən məbəd oxuma-yazmağı bilməyən xristianların Xristianlığın tarixini öyrənməsi üçün tikilmişdi. 1511-ci ildə Konstantinopolun türklər tərəfindən fəthindən az sonra məscidə çevrilmiş, 1947-ci ildən 2020-ci ilə qədər isə muzey kimi fəaliyyət göstərib. 2020-ci il avqustun 21-də Türkiyə prezidentinin qərarıyla yenidən məscidə çevrilən məbəd 4 ilə bərpa edilərək ibadətə açılıb.

Kilsədə dünyaca məşhur “Məsihin dirilməsi” freskası və bir çox məşhur mozaika var.

## Erməni apostol kilsəsinin əmlakı əlindən alına bilər



Ermənistan hakimiyyəti dövlət ehtiyacları üçün erməni apostol kilsəsinin əmlakını əlindən ala bilər.

Bunu parlamentdə keçirdiyi brifinqdə baş nazir Nikol Paşinyanın hakim “Vətəndaş müqaviləsi” partiyası fraksiyasının katibi Artur Ovannisyan deyib.

“Erməni apostol kilsəsinin xüsusi statusu var, lakin Ermənistanda baş verən demokratik və vergi dəyişikliklərini nəzərə alsaq, dövriyyədə olan maliyyə resursları kölgədən çıxmalıdır. Bəli, kilsənin bir sıra imtiyazları var, elə ərazilər var ki, istifadə olunmur. Onlar dövlətin müxtəlif ehtiyacları üçün istifadə edilə bilər”, – deyə o bildirib.

Ovannisyanın sözlərinə görə, kilsə dövlətlə əməkdaşlıq etməli və kölgədən çıxmalıdır.

# CƏMİYYƏT VƏ DİN

№ 05 (391) / MAY 2024-CÜ İL


## İspaniyada tapılan unikal "Ekskalibur" qılıncı İslam mənşəlidir



Tədqiqatçılar, nəhayət ki, İspaniyada 30 il əvvəl kəşf edilmiş və Kral Arturun əfsanəvi qılıncına bənzədiyinə görə "Ekskalibur" adlandırdıqları tarixi qılıncın sirrini tapıblar.

Dəmir qılınc ilk dəfə 1994-cü ildə İspaniyanın şərq sahilindəki köhnə Valensiya şəhərində arxeoloji qazıntılar zamanı yerə dik ilişib qalmış vəziyyətdə tapılmışdı. Qədim Roma Forumunun şimalında yerləşən bu yer Valensiyanın keşməkeşli tarixi ərzində bir çox mədəniyyətlərin yüksəlişini və enişini görmüşdür.

Son 30 il ərzində qılıncın mənşəyi və yaşı müzakirə mövzusu olaraq qalırdı.

Valensiya Şəhər Şurasının aprelin 22-də yaydığı press-relizdə deyilir ki, Valensiya Arxeologiya Departamenti 75 illik yubileyi ərəfəsində kolleksiyasından olan artefaktları kataloqlaşdırmaq və yoxlamaq qərarına gəlib. Bu artefaktlardan biri də "Ekskalibur" qılıncıdır.

Qazıntıdan bəri qılıncın əsl yaşı naməlum olaraq qalırdı. Bununla belə, Valensiya Şəhər Şurasının Arxeologiya Xidmətinin son səyləri onun mənşəyini aydınlaşdırmağa imkan verib. Bu barədə "Horta Noticias" məlumat yayıb. Tarix qoyma üsullarından diqqətlə istifadə edərək, qılıncın X əsrə aid olduğunu dəqiqləşdiriblər.

Arxeologiya Xidmətinin təhlili göstərir ki, bu qılınc Valensiyada bu tipdə hazırlanmış ilk tapıntıdır. Hesab etmək olar ki, o, İslam dövrünə aiddir. Bu dövrə aid qılınclar İspaniyada, xüsusən də torpağın tərkibi dəmir əşyaların qorunmasını çətinləşdirən Valensiyada nadir hallarda olur.

Bu ilin əvvəlində "Ekskalibur" tədqiqat layihəsinə rəhbərlik edən arxeoloq Xose Migel Osuna 18 düyümlük tiyənin İslam dövrünə aid olduğunu aşkar edib. Tədqiqatçı tunc lövhələrlə bəzədilmiş qılınc sapı və tutma üçün kərtiklərin tədqiqi əsasında belə qənaətə gəlib.

Qılıncın ayri metal ucu onun vestqotlara aid ola biləcəyinə inanan tədqiqatçılar arasında çaşqınlıq yaratmışdı. Lakin sonradan Osuna bu fərziyyəni təkzib etdi.

Qılıncın böyüklüyü və demək olar ki, qulpunun olmaması onun Əndəlüs xilafəti dövründə atlı döyüşçü tərəfindən istifadə olunduğunu deməyə əsas verir.

## Süni intellekt sosial nizamı məhv edə bilər

Süni intellektin sosial nizamı məhv edə biləcəyini deyən Yaponiya rəsmiləri onun yaradacağı problemlər barədə araşdırma aparıblar.

Ölkənin ən böyük telekommunikasiya şirkəti "Nippon Telegraph and Telephone" Yaponiyanın aparıcı qəzetlərindən biri olan Yomiuri Shimbun ilə birgə dərc etdiyi bəyanatda süni intellektdən istifadə ilə bağlı yeni qaydaların müəyyənləşdirilməsinin lazım olduğunu açıqlayıb. ABŞ-nin tanınmış qəzetlərindən olan "Wall Street Journal"ın məlumatına görə, bəyanatda deyilir: "Ən pis ssenaridə süni intellekt demokratiyanın və sosial nizamın çökməsinə səbəb ola bilər ki, bu da müharibələrə yol açar..."

Tokioda yerləşən Keio Universitetinin alimləri isə süni intellekt texnologiyası üzərində araşdırma aparıblar. ABŞ-dan ölkəyə gətirilən süni intellekt proqramlarının saxta videoların və dezinformasiyaların istehsalına səbəb ola biləcəyi barədə xəbərdarlıq edilib.

## Bakı və Abşeron üzrə namaz vaxtları (iyun - 2024)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 03:29 | 05:12 | 12:38 | 17:49 | 20:21 | 21:41 |
| 2 | 03:28 | 05:12 | 12:39 | 17:50 | 20:22 | 21:42 |
| 3 | 03:27 | 05:12 | 12:39 | 17:50 | 20:23 | 21:43 |
| 4 | 03:27 | 05:11 | 12:39 | 17:51 | 20:24 | 21:44 |
| 5 | 03:26 | 05:11 | 12:39 | 17:51 | 20:24 | 21:45 |
| 6 | 03:25 | 05:11 | 12:39 | 17:52 | 20:25 | 21:46 |
| 7 | 03:25 | 05:10 | 12:40 | 17:52 | 20:25 | 21:46 |
| 8 | 03:24 | 05:10 | 12:40 | 17:52 | 20:26 | 21:47 |
| 9 | 03:24 | 05:10 | 12:40 | 17:53 | 20:27 | 21:48 |
| 10 | 03:24 | 05:10 | 12:40 | 17:53 | 20:27 | 21:49 |
| 11 | 03:23 | 05:10 | 12:40 | 17:53 | 20:28 | 21:49 |
| 12 | 03:23 | 05:10 | 12:40 | 17:54 | 20:28 | 21:50 |
| 13 | 03:23 | 05:10 | 12:41 | 17:54 | 20:29 | 21:50 |
| 14 | 03:23 | 05:10 | 12:41 | 17:54 | 20:29 | 21:51 |
| 15 | 03:23 | 05:10 | 12:41 | 17:55 | 20:29 | 21:51 |
| 16 | 03:23 | 05:10 | 12:41 | 17:55 | 20:30 | 21:52 |
| 17 | 03:23 | 05:10 | 12:42 | 17:55 | 20:30 | 21:52 |
| 18 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:30 | 21:53 |
| 19 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 20 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 21 | 03:23 | 05:11 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 22 | 03:23 | 05:11 | 12:43 | 17:56 | 20:31 | 21:53 |
| 23 | 03:24 | 05:11 | 12:43 | 17:57 | 20:31 | 21:53 |
| 24 | 03:24 | 05:11 | 12:43 | 17:57 | 20:32 | 21:54 |
| 25 | 03:25 | 05:12 | 12:43 | 17:57 | 20:32 | 21:54 |
| 26 | 03:25 | 05:12 | 12:43 | 17:57 | 20:32 | 21:53 |
| 27 | 03:25 | 05:12 | 12:44 | 17:57 | 20:32 | 21:53 |
| 28 | 03:26 | 05:13 | 12:44 | 17:57 | 20:32 | 21:53 |
| 29 | 03:27 | 05:13 | 12:44 | 17:57 | 20:31 | 21:53 |
| 30 | 03:27 | 05:14 | 12:44 | 17:57 | 20:31 | 21:53 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## Gələcəyin əsas meqapolisləri məlum olub



Avstraliyanın "Institute for Economics & Peace" təşkilatı 2050-ci ilədək ən böyük meqapolisə çevriləcək 5 şəhərlə bağlı proqnoz verib. İnstitutun yaydığı məlumatda deyilir ki, 2023-cü ildə dünya əhalisinin 56%-i şəhərdə yaşayırdı. 2050-ci ilədək planetin əhalisinin sayı 1,6 milyard nəfər artacaq və onların azı 70%-i şəhərlərdə yaşayacaq.

İnstitutun mütəxəssislərinin fikrincə, 2050-ci ildə ən böyük şəhərlər arasında beşinci yeri Bombey (Hindistan) tutacaq. Burada 32 400 000 nəfərin yaşayacağı gözlənilir.

Dördüncü yerdə Misirin paytaxtı Qahirə gəlir. Burada 32 600 000 nəfərin məskunlaşacağı ehtimal edilir.

Tokio ilə bağlı da proqnoz maraqlıdır. Yaponiyanın paytaxtı 2022-ci ildə 37 300 000 nəfər sakinlə dünyanın ən böyük şəhəri olub. Lakin ölkədə doğum sayı azaldığı üçün Tokioda 2050-ci ildə ən yaxşı halda 32 600 000 nəfərin yaşayacağı gözlənilir. Gündoğar ölkənin paytaxtı ilk beşlikdə üçüncü yerdə qərarlaşacaq.

İkinci yerdə qərar tutacaq Banqladeşin Dəkkə şəhərində 34 600 000 nəfərin məskunlaşacağı gözlənilir. Hazırda şəhərə ciddi axın var.

Hazırda dünyanın ikinci ən böyük şəhəri olan Yeni Dehlinin 2050-ci ildə dünyanın ən böyük meqapolisinə çevrilməsi gözlənilir. Ehtimala görə, burada 2050-ci ilədək 49 600 000 nəfər məskunlaşacaq.

### Yadigar söz

**Miletli Fales**

*Zaman hər şeydən müdrikdir, çünki son və doğru cavabı o verir.*


Baş redaktor Səyyad ARAN

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV
Raman DADAŞOV (Məsul katib).



Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99



Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894